www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16-17 aprel 2016-cı il Şənbə № 81 (6402) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda beynəlxalq tibb mərkəzinin rəhbərinin evini yardılar

yazısı səh.14-də

**Gündəm**

### BŞİH-də və "Azərenerji"də ciddi yeyintilər aşkarlandı




Hesablama Palatası 2015-ci ildə 10 milyon dövlət əmlakının mənimsənilməsi faktının üstünü açıb

yazısı səh.4-də

### Parlamentdə müharibə "gündəliyi"

yazısı səh.4-də

*Vahid Əhmədov:*

### "Ölkənin bank sistemi iflic haldadır"

yazısı səh.6-da

### İƏT-in zirvə toplantısında İrana qarşı qətnamə qəbul edildi

yazısı səh.3-də

### İsa Qəmbər 23 il öncə rəhbərlik etdiyi uğurlu hərbi əməliyyatın detallarını açıqladı

yazısı səh.5-də

### "Azərbaycan ordusu İrəvana qədər gedər, əgər..."

yazısı səh.8-də

### Xaricdə təhsil proqramı dayandırılır

yazısı səh.2-də

*Nazir:*

### "Ermənistan terrorçuları Azərbaycanın işğal olunmuş ərazilərinə toplamağa çalışır"

yazısı səh.8-də

### Dərin dövlətin əsas hədəfi - Türkiyə ilə Azərbaycanın birləşməsi

yazısı səh.10-da

*7 erməninin məhv edən zabitimiz:*

### "Yenidən döyüşməyə hazıram"

yazısı səh.11-də

### 4 günlük müharibədə susanlar - Abbas Abbasov, Söyün Sadıqov, Rüstəm İbrahimbəyov...

yazısı səh.12-də

## Ermənistanın real itkiləri: 322 ölü, 500-dən çox yaralı...

# DÜŞMƏN 4 GÜNLÜK SAVAŞIN YASINDAN ÇIXA BİLMİR - SƏRKİSYANDAN YASAQ GƏLDİ...

Ölülərini "porsiya-porsiya" açıqlayan işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi ordumuzdan qorxub İran tərəfə qaçan fərarilərini də axtarır; ictimai qəzəbdən çəkinən Sərkisyan rejimi hərbçilərin öz qohumları ilə ünsiyyətini yasaqladı...



yazısı səh.9-da

## Əkrəm Əylislinin ölkədən buraxılmamasının şok sirri - "Nobel alıb, dönməyəcəkdi..."

Yazdığı "Daş yuxular" romanı ilə Azərbaycana qarşı böyük təxribata yol vermiş yazıçı Qərbin diqqətini çəkib; ikinci Orxan Pamuk nümunəsi yetişdirilir...

yazısı səh.12-də



### Baş Prokurorluq Tofiq Yaqubluya xəbərdarlıq etdi

yazısı səh.2-də



### İlqar Əliyevin həbs olunduğu gün şam yeməyi müxalifətçidən gəlib - heyrətamiz fakt

yazısı səh.6-da



### Robert Sekutadan ABŞ-Azərbaycan münasibətlərinə dair mühüm açıqlamalar

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016



# Məzahir Pənahov növbəti dəfə MSK sədri oldu

**Milli Məclisin 15 aprel tarixli plenar iclasında Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibi təsdiq edilib. Qeyd edək ki, Milli Məclisin bu gün keçirilən plenar iclasında "Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin seçilməsi haqqında" qərar layihəsi müzakirəyə çıxarılaraq, qəbul edilib.**

Milli Məclisdə çoxluq təşkil edən YAPı, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatlar, azlıq təşkil edən Ana Vətən Partiyası, Azərbaycan Demokratik İslahatlar Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Sosial Rifah Partiyası, Vəhdət Partiyası, Vətəndaş Birliyi Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası MSK üzvlüyünə namizədlərini parlamentə təqdim edib.

Qərara əsasən, Fuad Cavadov, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımova, Hüseyn Paşayev, Məzahir Pənahov, İlham Məmmədov, Natiq Məmmədov, Arifə Muxtarova, Nizami Nadirov, Qabil Orucov, Azər Tağıyev, Bəxşeyiş Əsgərov, Tofiq Həsənov, Almaz Qəhrəmanlı, Etibar Quliyev, Mikayıl Rəhimov, İlkin Şahbazov MSK üzvü, Sürəddin Hümbətov, Bəhruz Quliyev, Aydın Muradov və Niyaməddin Orduxanov isə MSK-nın əvəzedici üzvü təyin olunub.

Spiker Oqtay Əsədov gündəlikdəki məsələni müzakirəyə çıxarandan sonra bəzi deputatların fikirləri dinlənilib və yeni tərkib səsverməyə çıxarılaraq təsdiqlənib. Yeni tərkibə Məzahir Pənahov, Natiq Məmmədov, Arifə Muxtarova, Mikayıl Rəhimov, Fuad Cavadov, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirov, Qabil Orucov, Azər Tağıyev, Bəxşeyiş Əsgərov, Etibar Quliyev, Tofiq Həsənov, Almas Qəhrəmanlı, Hüseyn Paşayev və İlkin Şahbazov daxildir. MSK-nın 2010-cu ildə formalaşdırılan tərkibindən Tamam Cəfərovanın və Akif Qurbanovun adları çıxarılıb, onların əvəzinə siyahıya H.Paşayev (YAP) və İ.Şahbazovun (Sosial Rifah Partiyası) adları daxil edilib. M.Pənahov etimada görə parlamentə təşəkkür edib.

Daha sonra MSK-nın yeni tərkibdə ilk iclası keçirilib. Məzahir Pənahov yenidən MSK sədri seçilib. Natiq Məmmədov isə MSK sədrinin müavini, Mikayıl Rəhimov və Arifə Muxtarova MSK-nın katibi seçiliblər.

Qeyd edək ki, MSK-nın 2010-cu ildə formalaşan tərkibindən iki nəfərin - Tamam Cəfərovanın və Akif Qurbanovun adı çıxarılıb, onların yerinə Hüseyn Paşayev (YAP) və İlkin Şahbazovun (Sosial Rifah Partiyası) adı əlavə olunub. A. Qurbanov Ümid Partiyasının MSK-dakı təmsilçisi olub. Ümid Partiyası 2015-ci ildə keçirilən parlament seçkilərində deputat mandatı qazana bilməyib.

❑ E.PAŞASOY

# 32 məktəb direktoru vəzifəsindən azad edilib

**"Yoxlama ilə görülən tədbirlər zamanı 32 orta məktəb direktoru tutduğu vəzifəsindən azad edilib, 38 direktor barəsində isə barəsində digər tənbehedici tədbir görülüb". Musavat.com xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin Audit şöbəsinin müdir əvəzi Elnur Hacıyev media nümayəndələri ilə keçirilən təlimdə bildirib.**

Nazir rəsmisi qurumun struktur vahidləri və tabeliyindəki müəssisələrdə auditin aparılmasından söz açıb: "Görülən tədbirlər zamanı işindəki nöqsanlara görə şöbənin 5 əməkdaşı, 3 məktəbdənkənar müəssisə, 32 orta məktəb direktoru tutduğu vəzifəsindən azad edilib. Şöbənin 27 əməkdaşı və 38 orta məktəb direktor barəsində digər tənbehi tədbirlər görülüb. Peşə məktəbi direktoru əvəzi və baş mühasib tutduğu vəzifədən azad edilib".

Nazirlik rəsmisi qeyd edib ki, bu statistika bu ilin mart ayı da daxil olmaqla 2015-201digər illəri əhatə edir.

Həmçinin Elnur Hacıyev vurğulayıb ki, 10643,27 manat nazirliyin dövlət büdcəsinə bərpası təmin edilib.

"Elanda təhsil haqqında nə göstərilibsə, qəbul planı təsdiq olunubsa, ödəniş də o pulla aparılmalıdır".

**Bu barədə Təhsil Nazirliyi elm və orta ixtisas təhsili şöbəsinin baş məsləhətçisi Nərgiz Qaraxanova bildirib. Onun sözlərinə görə məsələ ilə bağlı iki ali məktəbin rəhbərliyinə irad bildirilib:** "Heç bir təhsil müəssisəsində xarici valyuta ilə təhsil haqqının ödənilməsi məsələsi qeydə alınmayıb. Lakin iki özəl ali təhsil müəssisəsində bu problem yaşanıb. Problemin aradan qaldırılması üçün də lazımi addım atılıb. Təhsil haqqı ilə bağlı elan veriləndə hər yerdə manatla ödənişin etmək lazım olduğu bildirilir. Tələbə müqaviləni imzalayanda ödəniş məsələsinə xüsusi diqqət etməlidir. Bu məsələdə ali məktəbin də günahı var. Bununla əlaqədar həmin iki ali məktəbin rəhbərliyinə ciddi irad bildirilib. Qeyd olunub ki, elanda təhsil haqqında nə göstərilibsə, qəbul planı təsdiq olunubsa, ödəniş də o pulla aparılmalıdır. Hər iki fakt tələbənin xeyrinə həll edilib".

# Baş Prokurorluq Tofiq Yaqubluya xəbərdarlıq etdi



**Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu aprelin 15-də Baş Prokurorluğa çağırılıb. T.Yaqublu müsavat.com-a bildirib ki, 2013-cü ildə onu həbs edən müstəntiq Nadir Mirzəyev səhər saatlarında zəng vurub və baş prokurorun müavini Rüstəm Usubovun görüş istəyini çatdırıb.**

T.Yaqublu müsavat.com-a deyib ki, görüşdə R.Usubov, N.Mirzəyev və tanımadığı başqa bir müstəntiq iştirak edib. O bildirib ki, onu əsasən xəbərdarlıq üçün çağırıblar. Və Rüstəm Usubov ona bildirib ki, "artıq ağsaqqal yaşına çatmısan, ailəndə problemlər olub, yenidənmi həbsxanaya getmək istəyirsən?" T.Yaqublunun sözlərinə görə, dövlət başçısının ünvanına sosial şəbəkələrdə və mətbuatda söylədiyi tənqidlərin yolverilməz olduğu xatırlanıb, tövsiyə olunub ki, bu mövqeyindən əl çəksin.

T.Yaqublu söyləyib ki, görüşdə ona "sən hələ də deyəsən ağıllanmamısan" mesajı da verilib.

Onun bildirdiyinə görə, görüşdə mədəni bir ortam olub. Ona qarşı hər hansı bir kobudluq olmayıb, müəyyən profilaktik söhbət aparılıb.

Bu xəbərdarlığın onun növbəti həbsi üçün əsas olması barədə şübhələrə gəlincə isə, T.Yaqublu bildirib ki, bu haqda hər hansı bir yorumu yoxdur.

**Baş Prokurorluq məsələyə dair rəsmi açıqlamasında qeyd edilir:** "Tofiq Yaqublu 20 mart 2016-cı il tarixdən etibarən facebook-da mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin ünvanına böhtan xarakterli statuslar yazmaqla, KİV-ə müsahibəsində Azərbaycanda guya mövcud olan siyasi məhbus probleminin arxasında hakim dairələrin durması barədə həqiqəti təhrif edən məlumatlar bildirib. Bundan başqa, o, KİV-ə verdiyi müsahibədə dini radikallıq mövzusuna toxunaraq, cəzaçəkmə müəssisələrində cəza çəkən şiə və vəhabi təriqətinə etiqad edən məhkumlar arasında gərgin münasibətlərin olduğu, vəhabilərin həbsxanadan buraxılacağı təqdirdə dinc insanlara qarşı terror aktları törədəcəkləri barədə fikirlər söyləyib. T.Yaqublunun hərəkətləri ölkənin hüquq mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, cəza siyasətinin həyata keçirilməsi, dini nifrət və düşmənçiliyin salınmasının qarşısının alınması və digər sahələrdə görülən işlərə kölgə salmaq məqsədinə xidmət edir. Göstərilənlərlə əlaqədar T.Yaqublu Baş Prokurorluğa dəvət edilərək onunla müvafiq söhbət aparılmışdır. O, söhbət zamanı öz növbəsində KİV-də fikirlərinin təhrif olunduğunu bildirib. T.Yaqubluya milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, habelə milli və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına yönələn hərəkətlərin aşkar surətdə, o cümlədən KİV-dən istifadə olunmaqla törədilməsi əməllərinə görə CM-nin 283-cü maddəsində cinayət məsuliyyətinin nəzərdə tutulması izah edilib. "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə müvafiq qaydada gələcəkdə qərəzli, reallığa uyğun olmayan, habelə dini nifrət və düşmənçiliyin salınmasına yönələn hərəkətlərin davam etdirəcəyi təqdirdə barəsində qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib".

❑ RÖYA

# Nazir: "Xaricdə təhsil proqramı dayandırılır"

**Təhsil naziri Mikayıl Cabbarov Moskvaya səfəri çərçivəsində Rusiyada təhsil alan azərbaycanlı gənclərlə görüşüb. Təhsil Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, görüşdə Rusiyanın aparıcı təhsil müəssisələrində oxuyan 50-dən çox tələbə, Rusiya Azərbaycanlı Gənclər Birliyinin fəalları iştirak ediblər.**



Nazir gənclərə Azərbaycan ilə Rusiya arasında sıx iqtisadi və humanitar əlaqələrdən, ölkəmizdə son illər iqtisadi və siyasi sahələrdə qazanılan nailiyyətlərdən, rus dilində təhsilin inkişafı və digər mühüm məsələlərdən danışıb.

Mikayıl Cabbarov tələbələrin suallarına cavab verərək xarici ölkə ali məktəblərinin diplomlarının Azərbaycanda tanınması məsələsinə də toxunub. O bildirib ki, bəzi ali məktəblərin verdikləri diplomların legitimliyi sual doğurur. Bu sahədə qanunvericilikdə dəyişiklik edilməyib. Lakin Rusiyada təhsil alıb, öz fikrini rus dilində ifadə edə bilməyən məzunun diplomu təsdiq edilməyəcək və yalnız öz ölkəsində akkreditasiyadan keçmiş ali məktəbin diplomu Azərbaycanda tanına bilər. Nazirlikdə diplomların tanınması ilə məşğul olan xüsusi idarə yaradılıb və bu proses tam elektron şəkildə həyata keçirilir.

Nazir, həmçinin qeyd edib ki, hazırda Azərbaycanda təxminən 3 minə yaxın xarici vətəndaş təhsil alır və onların yarısından çoxu Çindən gəlib. Rusiya vətəndaşı olan azərbaycanlıların da ölkəmizdə təhsil alması üçün heç bir manеə yoxdur.

Nazir Azərbaycanda həyata keçirilən xaricdə təhsil proqramına da münasibət bildirərək deyib ki, bu il proqramın həyata keçirilməsi dayandırılır və artıq proqramın yeni formatı hazırlanır. Yeni proqrama uyğun olaraq xaricə, əsasən PHD və magistr səviyyəsində təhsillərini davam etdirmək istəyən gənclər göndəriləcək və eyni zamanda, dünyanın aparıcı ali təhsil müəssisələrindən professor-müəllim heyəti cəlb olunacaq.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



# Qulu Məhərrəmlinin məhkəməsində Arif Alışanovun vəsatəti təmin edilib

**Yasamal Rayon Məhkəməsində Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin (ASC) sədri Arif Alışanovun professor, əməkdar jurnalist Qulu Məhərrəmliyə qarşı xüsusi ittiham qaydasında verdiyi şikayət üzrə məhkəmənin baxış iclası keçirilib.**

"Report"un məlumatına görə, hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə A.Alışanovun nümayəndəsi vəsatətlə çıxış edib.

O, Q.Məhərrəmlinin mətbuata verdiyi müsahibə ilə bağlı linqivistik ekspertizanın keçirilməsini istəyib.

Q.Məhərrəmlinin müdafiəçisi Cavid Rzazadə çıxışında vəsatətin çox ümumi xarakter daşıdığını və müsahibədəki konkret hansı sözün təhqir olduğunu dəqiqləşdirməyə ehtiyac yarandığını deyib.

Q.Məhərrəmli isə çıxışında burada məsələnin o dərəcədə aydın olduğunu və xüsusi linqivistik ekspertizaya ehtiyac olmadığını söyləyib. O, A.Alışanova böhtan atmadığını deyib.

Məhkəmə müşavirə otağına yollanıb. Müşavirədən qayıdan hakim A.Tağıyev vəsatəti təmin edib.

Bununla da iclas başa çatıb.

Məhkəmənin növbəti iclasının vaxtı hələ müəyyənləşməyib.

Qeyd edək ki, A.Alışanov və Q.Məhərrəmli arasında narazılıq jurnalistin fevral ayında Azərbaycan televiziyanın kütləvi yayımına başlamasının 60 illiyi ilə bağlı verdiyi müsahibədən sonra yaranıb. Bundan sonra Alışanov Məhərrəmlini məhkəməyə verib. O, jurnalistdən mülki qaydada dəymiş ziyanın ödənilməsini istəyib. Bununla bağlı A.Alışanov Nəsimi Rayon Məhkəməsinə müraciət edərək, Q.Məhərrəmlidən 100 min manat pul tələb edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbulda keçirilən XIII Zirvə toplantısı aprelin 15-də başa çatıb. Zirvədə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dünən vətənə dönüblər.**

APA-nın xəbərinə görə, toplantının sonunda Fələstinlə bağlı qətnamə, İslam Əməkdaşlıq Təşkilatının 2016-2025-ci illər üçün fəaliyyət planı, yekun kommünike və İstanbul bəyannaməsi qəbul edilib.

Qarşıdakı 2 ildə quruma rəhbərlik edəcək **Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan** bağlanış nitqində bildirib ki, Şərqdən Qərbə, Cənubdan Şimala bütün İslam aləmində çətinliklərin aşılması üçün vacib olan birlik, bərabərlik və həmrəylikdir: "Önümüzdəki müddətdə bu anlayış və inamla çalışmalarımızı davam etdirəcəyik. Qarşıdakı 10 il üçün Fəaliyyət proqramı və bəyannamənin qəbul edilməsi vacibdir və biz işimizi effektivləşdirməliyik. Yekun bəyannamədə əsas siyasi proseslər, iqtisadi, sosial mövzularda ortaq mövqe nümayiş etdirdik. Eyni zamanda, təşkilat üzvü olmayan ölkələrdəki müsəlman toplumlarla bağlı mövqeyimizi ortaya qoyduq".




# İƏT-in zirvə toplantısında İstanbul bəyannaməsi qəbul edildi

## Dağlıq Qarabağ konfransın əsas məsələlərindən biri oldu; Ərdoğan Minsk Qrupunu ittiham etdi; quruma borcu olmayan ölkələr sırasında Azərbaycan da yer aldı

**İƏT-nın toplantısı ölkəmiz üçün kifayət qədər uğurlu keçib.** Əksər ekspertlər gələcək acısından Dağlıq Qarabağ probleminin həlli istiqamətində zirvə toplantısının mühüm əhəmiyyətinin olacağını proqnozlaşdırırlar. Təsadüfi deyil ki, toplantıda ən çox müzakirə olunan məsələlərdən biri də Qarabağ problemi olub. Tədbirin açılış nitqində İƏT-nın baş katibi İyad Madani açıq şəkildə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən qoşunlarını geri çəkmədiyini bəyan edib. Bundan əlavə, digər ölkələrin rəhbərləri də Dağlıq Qarabağ probleminə toxunaraq, Ermənistanın təcavüzkar siyasətini açıq şəkildə pisləyiblər. Toplantının yekunlarına dair keçirilən mətbuat konfransında **Türkiyə prezidenti R.T.Ərdoğan ATƏT-in MİNSK qrupunu fəaliyyətsizlikdə ittiham edib:** "Azərbaycanlı qardaşlarımızı təxminən 25 ildir, Ermənistan işğalı altında olan torpaqlarının azad edilməsi uğrunda mübarizələrində dəstəkləyirik. Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı lazımı hüquqi sənədlər var. Problemin həlli üçün daha çox səy göstərilməsi lazımdır. Mən həmsədrlərin bu prosesi yekunlaşdırmamasını anlamıram. Bunun üçün ciddi addımlar atılmalıdır".

Azərbaycan prezidenti İlham Əliyev də toplantıdakı çıxışının böyük bir hissəsini Qarabağ probleminin həllinə həsr edərək, Ermənistanın təcavüzkar siyasətini növbəti dəfə dünyaya bəyan edib.

Zirvə toplantısında quruma borcu olmayan dövlətlərin də siyahısı açıqlanıb. Ölkəmizin də olduğu siyahıda bu dövlətlərin adı yer alır: Azərbaycan, Qazaxıstan, Əfqanıstan, Bəhreyn, İndoneziya, Əlcəzair, İraq, Qazaxıstan, Küveyt, Malayziya, Mərakeş, Oman, Tunis, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliyi, Türkiyə.

**Ərdoğan üzvlük haqqı ödəməyən dövlətlərə müraciətində bunları deyib:** "Ya bu ianə sistemini ləğv edin, ya da ödəniş sisteminə keçin".



## Qabil Hüseynli: "İndiki sammit əvvəlkilərdən çox qabağa getdi"

Türkiyə rəhbəri ölkəsinin İƏT-ə 2 milyon dollar məbləğində ianə verdiyini də vurğulayıb.

İƏT sammitində Səudiyyə Ərəbistanı İrana qarşı qınamanın yekun qətnaməyə salınmasını təklif edib. Qətnamədə İranın başqa ölkələrin daxili işlərinə qarışmaması tələb olunur. Bundan başqa, qətnaməyə İranın Tehran və Məşhəd şəhərlərində yerləşən Səudiyyə Ərəbistanı konsulluqlarına baş verən hücumlar qınanır, diplomatik təmsilçiliklərin qorunmadığı tənqid olunur. Eyni zamanda İƏT-in Səudiyyə Ərəbistanında terrorda ittiham olunan şəxslərin məhkəmə yolu ilə cəzalandırılmasına İranın açıqlamalarını rədd edir, Səudiyyə Ərəbistanının daxili işlərinə müdaxilə kimi qiymətləndirir.

Eyni zamanda İƏT İranın Bəhreyn, Yəmən, Suriya və Somali kimi ölkələrdə və digər İƏT ölkələrinin daxili işlərinə qarışması və terroru dəstəkləməsini qınayır.

Bu qətnamə layihəsi xarici işlər nazirlərinin toplantısında gərginliyə səbəb olmuş, İran tərəfi layihəyə etiraz etmişdi.

İƏT ölkələri nümayəndələri arasında gərgin mübahisələrə səbəb olan bu layihə sonunda qəbul olunub və gözlənildiyi kimi, İranın ciddi narazılığına səbəb olub. Türkiyə, Pakistan kimi ölkələr Səudiyyəni bu mövqedən daşındırmağa, ortaq bir qətnaməyə nail olmaq istəsələr də, ər-Riyad israr edib və nəticədə qətnamə qəbul olunub. İran prezidenti bağlanış mərasiminə qatılmayıb.

Zirvənin gedişatını və yekunlarını ekspertlər ölkəmiz baxımından müsbət dəyərləndirirlər. Xüsusilə tədbirin Ermənistanla olan 4 günlük savaşdan sonraya təsadüf etməsini, eləcə də, qarşıdakı 2 ildə qardaş ölkənin quruma rəhbərlik edəcəyini Azərbaycan üçün müsbət adlandırırlar.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında Ermənistanın təcavüzkar dövlət olması ilə bağlı ilk dəfə bəyanatın İƏT-nın qəbul etdiyini söylədi: "Ermənistanın təcavüzkar ölkə olması demək olar ki, ilk dəfə İslam Əməkdaşlıq Konfransı tərəfindən səsləndirilib. O zaman hələ konfrans adlanırdı. Həmin tədbir Mərakeşdə keçirilirdi və mən də iştirak edirdim. Böyük uğur idi. Müsəlman dövlətlərinin Azərbaycanın problemi ilə bağlı yanımızda olmalarının başlanğıcı idi. Qurum İslam Əməkdaşlıq Təşkilatına çevrildikdən sonra ölkəmizin problemləri ilə daha yaxından maraqlanmağa başladı. Öz iclaslarında erməni təcavüzkarlığını pislədi. Hər sammitdə qəbul etdiyi qətnamələrə Azərbaycanın ərazi bütövlüyünü saldı. İndiki sammit əvvəlkilərdən çox qabağa getdi. İslam ölkələrinin problemləri sırasında Azərbaycanın da problemləri qabardıldı. Bu problemlərə beynəlxalq təşkilatların biganə münasibətləri vurğulandı. Eyni zamanda, bildirildi ki, İslam dünyası Azərbaycanın Qarabağ probleminin həllində yumruq kimi birləşməlidir. Zənnimcə, bu Türkiyənin təklifidir ki, Qarabağ problemini təkcə sammitlər çərçivəsində deyil, hər gün qabartmaq üçün xarici işlər nazirlərindən ibarət təmas qrupu yaradılmalı, bu qrupla kontakt əlaqələr olmalıdır. Quruma daxil olan ölkələrin xarici işlər nazirləri səviyyəsində bu təmas qrupunun toplantısının təmin olunmasının vacibliyi də göz önündə oldu. Zirvə toplantısında Azərbaycanla bağlı olan hissələri ölkəmizin növbəti ciddi uğuru kimi saymaq olar. Son zamanlarda ciddi diplomatik gəlişmələrin şahidi olmaqdayıq. Amerika Dağlıq Qarabağ problemi ilə bağlı dəstəyini xeyli artırıb. Avropa Birliyinə sədrlik edən Almaniya ərazi bütövlüyümüzü ön plana çəkərək qabardıb. Sarkisyanın Almaniya səfərinin uğursuz alındığını qeyd etmək vacibdir. Merkel onun diqqətinə açıq şəkildə çatdırıb ki, Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsas məsələdir".

**Politoloq İƏT-nın 13-cü toplantısında Azərbaycanın Qarabağ probleminin əsas məsələlərdən biri kimi önə çəkildiyini də qeyd etdi:** "Konfransda xarici işlər nazirlərindən ibarət təmas qrupunun yaradılması onu göstərir ki, Azərbaycanın arxasında güclü, obyektiv tərəfdarlar qrupu formalaşmaqdadır. Belə vəziyyətdə imperialist maraqları həyata keçirmək mümkünsüz olacaq. Qarabağ cəbhəsindən sonra münaqişənin həllində ciddi dönüş yaranıb. Hazırda əsas məsələ bu dönüşü düzgün idarə etmək, onu həlledici qələbəyə çatdırmaqdan ibarətdir. İstanbul sammiti bu dönüşə ciddi təkan verdi. Bundan sonra proseslərin daha sürətlə gedəcəyini düşünmək elə də çətin deyil".

❑ **Cavanşir ABBASLI**




# Elxan Süleymanov: "Petisiyadakı hər bir səs işğalçı Ermənistanın iç üzünü dünyaya açacaq"

"Ağ Ev Administrasiyasının internet səhifəsini hər gün ziyarət edən yüz minlərlə insan Azərbaycanın haqq işi uğrunda mübarizəsindən xəbər tutmalıdır"



**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının 06.04.2016-cı il tarixində icrasına start verdiyi "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya layihəsinin (https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe) rayonlarda, ali məktəb və müəssisələrdə müzakirəsi davam edir.**

15 apreldə Azərbaycan Dövlət Pedaqoji Universitetində bu qəbildən növbəti tədbir baş tutub. Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbiri giriş sözü ilə universitetin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, professor Yusif Məmmədov açdı. Y.Məmmədov petisiya müraciətinin müəllifi, millət vəkili Elxan Süleymanovun beynəlxalq fəaliyyəti barədə və petisiyanın mahiyyəti ilə bağlı məlumat verdi. Rektor qeyd etdi ki, son vaxtlar baş verən hadisələr göstərdi ki, Azərbaycanın ərazi bütövlüyünü öz qanı və canı hesabına müdafiə etməyə hazır olan gənc nəsil formalaşıb. Natiq ölkəmizin qarşısında duran problemlərin həllində gənclərin üzərinə böyük vəzifələr düşdüyünü qeyd edərək, petisyaya səs verilməsi prosesində də gəncləri fəal olmağa dəvət etdi.

Sonra çıxış edən **AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanov** qeyd etdi ki, petisiyanın ən böyük əhəmiyyəti Azərbaycan həqiqətlərinin dünyaya çatdırmasında oynadığı roldur. Çünki bu həqiqətlər AŞPA-nın 2086 (2016) saylı qətnaməsinin müddəasında olduğu kimi çatdırılır. E.Süleymanov Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini təsdiq edən bu sənədin qəbulunu Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasətin böyük uğuru kimi xarakterizə etdi. Millət vəkili bildirdi ki, petisiyaya səs verilməsi yalnız indiyədək bu prosesdə fəal iştirak edən Azərbaycan və Türkiyə əhalisinin deyil, dünyanın bütün sülhsevər və ədalətpərvər insanlarının vicdan borcu olmalıdır. Ağ Ev Administarasiyasının internet səhifəsini hər gün ziyarət edən yüz minlərlə insan Azərbaycanın haqq işi uğrunda mübarizəsindən xəbər tutmalıdır. Bu günədək 130 minədək insanın səs verdiyini söyləyən Elxan Süleymanov qeyd etdi ki, bu rəqəm dəfələrlə çox olmalıdır, çünki hər bir səs işğalçı Ermənistanın iç üzünü dünyaya açacaq. Natiq ölkəmizin ərazisinin 20 faizinin erməni silahlı birləşmələri tərəfindən işğalı faktının yalnız Azərbaycan üçün deyil, həm də Ermənistanın özü üçün faciə olduğunu vurğuladı. Belə ki, bu amil Ermənistanın inkişafını ləngidir.

**AVCİYA-nın eksperti İradə Yaqubova** petisiyaya səsvermə proseduru ilə tədbir iştirakçılarını məlumatlandırdı və bildirdi ki, hər bir qurğudan (kompüter, mobil telefon və s.) yalnız bir səs vermək olar.

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

**Aprelin 15-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun rəhbərliyi ilə keçirildi. Gündəliyə bir sıra mühüm məsələlər salınsa da, deputatlar cari məsələlərə ayrılan vaxt zamanı Qarabağda baş verən hərbi əməliyyatlar ətrafında çıxışlar oldu.**

# Parlamentdə müharibə "gündəliyi"

## Deputatlar aprelin ilk həftəsindəki hərbi toqquşmalardan danışdılar; **Qarabağ ermənilərinə çağırış:** "Təhlükəsiz yaşamaq istəyirsinizsə, bizimlə eyni səngərə keçin..."




**Deputat Siyavuş Novruzov** son zamanlar Azərbaycanın diplomatik və hərbi sahədə əldə etdiyi uğurları gözü götürməyən qüvvələrin fəaliyyətindən bəhs etdi. O dedi ki, son günlər bəzi saytlarda ölkəmiz, həmçinin Milli Məclis barədə xoşa gəlməyən yazılar gedir: "Dövlət Departamenti Azərbaycan haqqında xeyli xoş sözlər deyib, ancaq müəyyən dairələrin təhriki ilə səslənən qərəzli fikirlər yazılarda başlığa çıxarılır". S.Novruzovun sözlərinə görə, aprel döyüşlərinə, şəhidlərə münasibətdə xalq, Milli Məclis üzvləri hakimiyyətlə bir yerdə oldu. Deputat müvafiq qurumları bu kimi materiallar yayan mətbuat orqanları ilə məşğul olmağa çağırdı.

**Deputat Zahid Oruc** Qarabağdakı son toqquşmalardan danışdı: "Aprel savaşı sübut etdi ki, "danışıqların alternativi yoxdur" fikri heç də doğru deyil. Yetər ki, Ermənistan və Azərbaycan üz-üzə qalsın və biz qısa müddətdə ərazi bütövlüyümüzü bərpa edək". Z.Oruc Rusiyanı 4 günlük müharibədə neytral davranmaqla 90-cı illərdən fərqli mövqe nümayiş etdirdi: "Bu gün ermənilər Rusiyaya qarşı etiraz edirlər. Bəlkə ruslar kömək edib biz İrəvanın 20 faizini ələ keçirtmişik? Yetər ki, Rusiya Ermənistanın elektrik enerjisini ikicə gün dayandırsın və biz ərazi bütövlüyümüzü təmin edək". Deputat Qarabağ ermənilərinə müraciət etdi: "Azərbaycan Dağlıq Qarabağ ermənilərinə təhlükəsizlik üçün təminat verir. Onlara sözümüz budur ki, təhlükəsiz yaşamaq istəyirsinizsə, bizimlə eyni səngərə keçin və silahı Sərkisyana qarşı çevirin!"

"Müharibədə kasıb, ya varlı uşağının həlak olması barədə fikirlərin yayılması çox təhlükəlidir". **Deputat Fazil Mustafa** bu fikirləri bəzi mətbuat orqanlarında aparılan müzakirələrdən bəhs edərkən söylədi. O bildirdi ki, adətən müharibəyə birmənalı münasibət olmadığı halda, bu dəfə ölkə prezidentinin verdiyi qərara və əmrə Azərbaycan xalqının münasibəti birmənalı oldu. F.Mustafa bəzi mətbuat orqanlarındakı yazılara diqqət çəkdi: "Bəzi saytlar yazır ki, şəhidlərin dəfnində hər kəs iştirak etdi, amma Milli Məclis üzvləri iştirak etmədi. Halbuki Milli Məclis üzvləri də dəfn mərasimlərində iştirak etdilər. Bu cür kateqoriyalara ayırmaq olmaz. Hər bir millət vəkili fotoaparat götürüb şəkil çəkdirməldir? Bu, müharibə şəraitində cəmiyyəti qruplara ayırmaqdır. Vətən müharibəsinə münasibət kökündən dəyişməlidir".

**Spiker Oqtay Əsədov** bir xatırlatma verdi: "Biz müharibə aparmamışıq, 3 gün ərzində düşmənin təxribatlarına cavab vermişik. Azərbaycan müharibə aparsaydı, bir həftədən sonra müharibə harada davam edəcəkdi, onu gözəl bilirsiniz. Azərbaycan dövləti hər kəsə göstərdi ki, istənilən yolla torpaqlarını azad edə bilər. Bu, Ermənistanı sülhə vadar etmək üçün ən vacib addım idi. Yeni danışıqlar üçün motivlər hazırdır, danışıqlar gedir. Güman edirik ki, məsələ yavaş-yavaş həllini tapacaq".

**Deputat Qüdrət Həsənquliyev**in sözlərinə görə, elə mövzular var ki, onun üzərində siyasət qurmaq olmaz: "Bu addımı atanlar lənətlənməlidir. Mən də oxuyuram ki, guya şəhidlərin sayı gizlədilir, onlar dəfn olunmur, yaxud dəfn mərasimlərinə deputatlar iştirak etmir. Biz Naxçıvanda şəhid Qabil Orucəliyevin dəfn mərasimində iştirak edirdik. Şəhidin əmisi dedi ki, Naxçıvan Ali Məclisinin sədrinin də həmin gün anası rəhmətə gedibmiş. Amma birinci şəhidin dəfn mərasiminə qatılıb. Bu fakt çoxlarını riqqətə gətirmişdi. Kiminləsə düşmənçiliyin varsa, açıq şəkildə düşmənçilik elə, yoxsa belə yazılardan istifadə etmə. Vaxtilə 60-70 nəfərin qabağından qaçanlar bu gün müharibə təbliğatı aparır. Avropa Şurasında çıxış edən Əli Kərimli demişdi ki, Ermənistan və Azərbaycanda hakimiyyətlər dəyişməyincə münaqişə həllini tapmayacaq. O zaman hətta "Azadlıq" qəzeti yazdı ki, Əli Kərimli bu çıxışı ingilis dilində oxudu. İndi belə bir adam durub deyir ki, müharibə lazımdır. Bu cür riyakar insanlara qarşı cəmiyyət öz sözünü deməli, münasibətini bildirməlidir".

**Deputat Fəzail Ağamalı** bildirdi ki, heç kimin çağırışı olmadan gənclərin üçrəngli bayrağımızla dəfn mərasimlərinə qatılması qürurvericidir: "Çox təəssüf olsun ki, bəzi qüvvələr Azərbaycan ordusuna, prezidentinə böhtan, şər atmaqda davam edirlər".

**F.Ağamalı deputat həmkarı Əflatun Amaşova müraciətlə Mətbuat Şurasının və özünün sərt mövqeyini ortaya qoymağa çağırıb. F.Ağamalı MDB məkanında Azərbaycana dəstək aksiyalarının keçirilmədiyini xatırladıb və diasporanı bu məsələyə diqqəti artırmağa çağırdı.**

❑ **Elşad PAŞASOY**

# BŞİH-də və "Azərenerji"də ciddi maliyyə yeyintiləri aşkarlanıb

## Hesablama Palatası 2015-ci ildə 10 milyon dövlət əmlakının mənimsənilməsi faktının üstünü açıb; ancaq deputat deyir ki, bu, çox kiçik rəqəmdir

**Milli Məclisin 15 aprel iclasında Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qurumun 2015-ci illə bağlı hesabatını təqdim etdi. Palata sədri bildirdi ki, "Azərenerji" ASC-də dövlət vəsaitini mənimsəmə və digər maliyyə pozuntuları, qanuna ziddi hallar aşkarlanıb. Belə ki, 2013-2014-cü illərdə podratçılar və layihə təşkilatları ilə cəmi vəsaitin 95%-i olmaqla 8 satınalma müqaviləsi bağlanıb. Amma təhlillər göstərir ki, həmin müqavilələrin 7-si və cəmi vəsaitin 76,4 %-i birbaşa müqavilələrin bağlanması ilə icra edilib. Qurumda dövlət satınalamalarını tənzimləyən normativ hüquqi aktların tələblərinə tam əməl edilməyərək 2013-2014-cü illərdə cəmi vəsaitin 58,6%-i satınalma proseduru tətbiq edilmədən xərclənib. Audit sübutları ilə "Azərenerji" ASC tərəfindən 2013-2014-cü illər üzrə dövlət əsaslı vəsait qoyuluşu üçün tələb olunan büdcə vəsaitlərinin proqnozlaşdırılması zamanı bir sıra nöqsanlara yol verildiyi müəyyən olunub. Palataya təqdim edilmiş məlumata görə, "Azərenerji" ASC tərəfindən 29,7 min manat dövlət büdcəsinə bərpa edilib, 35658,4 min məbləğində debitor borc üzrə işlər podratçı tərəfindən icra edilib.**

Bakı Şəhər İcra Hakimiyyətində də maliyyə pozuntuları, dövlət vəsaitini mənimsəmə və digər qanuna zidd əməllər aşkarlanıb. Belə ki, Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə BŞİH-ə ayrılmış vəsaitin 12,7%-nin təyinatı dəyişdirilərək Bakı şəhər yollarının asfalt örtüyünün əsaslı təmirinə və yenidən qurulmasına, həmçinin klassik və müasir tipli işıq dirəklərinin alınması və quraşdırılmasına yönləndirilib. Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərin tələblərinə əməl edilməyərək bəzi hallarda satın alınan malların ehtimal olunan qiymətləri mövcud qaydalara uyğun müəyyənləşdirilməyib. Tender prosedurunun keçirilməsi üçün minimum 3-4 ay vaxt tələb olunduğunu və görüləcək işlərə təcili tələbat yarandığını əsas gətirərək satınalmaların birbaşa müqavilə ilə həyata keçirilməsinə müvafiq razılıq alınsa da müqavilələr bir neçə aydan sonra bağlanıb. Nəticədə 2014-cü ildə Bakı Şəhər İcra hakimiyyəti tərəfindən əhatə olunan məbləğin 61,9%-i səviyyəsində satınalamalar birbaşa müqavilə metodu əsasında həyata keçirilib. Müvafiq satınalma proseduru keçirilmədən 10 layihəçi təşkilata layihə-smeta sənədlərinin hazırlanmasına görə vəsait ödənildiyi aşkarlanıb. Audit tədbirləri nəticəsində qurumun daha bir neçə sahələr üzrə vəsait ödənişində nöqsanları aşkarlanıb.







V.Gülməmmədovun sözlərinə görə, BŞİH-dən cəmi 106,4 min manata vəsait dövlət büdcəsinə bərpa edilib, 2 min manat dəyərində avadanlığın təhvil verilməsi təmin olunub. 35584,9 min manat dəyərində müxtəlif adda inventar və avadanlıqların müvafiq qaydada rəsmiləşdirildiyi qeyd olunub.

Bundan sonra Hesablama Palatasının 2015-ci il üzrə hesabatı üzrə müzakirələr başladı.

**Deputat Əflatun Amaşov** Hesablama Palatasının hesabatını müsbət dəyərləndirdi və bundan sonra Beynəlxalq Bank ətrafında baş verən olayların təkrarlanmaması üçün konkret təkliflərini verdi. **Əli Məsimli** Hesablama Palatasının fəaliyyətində antikorrupsiya tədbirlərinin geniş yer aldığını vurğuladı və qurumun işini müsbət qiymətləndirdi. Deputat bildirdi ki, Azərbaycanın xarici borcu 20 faiz ətrafındadır, amma bu yaxşı göstərici deyil. Çünki Azərbaycanın xarici borcu 10 faiz ətrafında olub".

**Vahid Əhmədov** dedi ki, 2015-ci ildə Palata büdcə vəsaitlərinin yalnız 10 faizini yoxlayıb ki, bu da çox aşağı göstəricidir: "Milli Məclisdə dəfələrlə bildirilib ki, dövlət büdcəsinin yerlərdə xərclənməsində ciddi qüsurlar var. Yoxlamalar nəticəsində cəmi 10 milyon manat dövlət büdcəsinə vəsait keçirilib ki, bu vəsait də çox azdır. Ona görə də nəzarət ciddi şəkildə həyata keçirilməlidir. Bu 83 yoxlama göstərdi ki, elə bir yoxlama yoxdur ki, orada ciddi nöqsanlar aşkar edilməsin. Bütün sahələrdə çox ciddi problemlər aşkar edib. Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində Azərbaycan iqtisadiyyatında çox ciddi problemlər aşkar edilib". V.Əhmədov qeyd etdi ki, Hesablama Palatasının səlahiyyətləri ciddi şəkildə genişlənməlidir.

**Deputat Zahid Oruc** neqativlərin aradan qaldırılmasına kompleks yanaşmağa çağırdı: "Biz nə qədər ki, tenderləri, satınalmaları şəffaf şəkildə həyata keçirə bilməyəcəyik, Hesablama Palatası orada neqativləri araşdırıb ortaya qoyacaq. Biz formaları tapmalıyıq ki, necə edək rayon icra hakimiyyətləri yerlərdə aparılan işlərə müdaxilə etməsinlər, maliyyə vəsaitləri təyinatı üzrə xərclənsin. Bağçada uşaqlardan daha çox böyüklər bəhrələnir. Bunlar bağça işçiləri deyil. Tibb ocaqlarında da oxşar vəziyyət hökm sürür. Bağçasını, səhiyyəsini özəlləşməyə açmayan ölkədə bir qurum bütün neqativlərin qarşısını ala bilməz".

Bundan sonra Palatanın hesabatı səsə qoyularaq qəbul edildi.

Dərs buraxan şagirdlərə görə cərimə ləğv edildi.

Deputatlar İnzibati Xətalar Məcəlləsinin 189.2-ci maddəsinin ləğv edilməsi haqqında məsələyə də baxdılar və müsbət rəy verdilər. Qeyd edək ki, həmin maddə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə valideynlərin və ya onları əvəz edən şəxslərin 100 manat məbləğində cərimə edilməsini nəzərdə tuturdu.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016



# İsa Qəmbər 23 il öncə rəhbərlik etdiyi uğurlu hərbi əməliyyatın detallarını açıqladı

## Milli Məclisin sabiq sədri: “Mənqələnata yüksəkliyini azad etməyimiz Füzulini, həmçinin digər rayonları işğaldan qurtardı”

**Aprelin 2-də Qarabağ cəbhəsində Ermənistan ordusu tərəfindən atəşkəsin pozulması və bir neçə günlük genişmiqyaslı hərbi əməliyyatların aparılması, Azərbaycan ordusunun müəyyən qədər irəliləməsi, yüksəklikləri azad etməsi cəmiyyətimizdə ciddi bir ruh yüksəkliyi yaratdı. 20 ildən artıq idi məğlubiyyət sindromunu yaşayan bir cəmiyyət sanki yenidən doğuldu, qələbəyə inam yarandı.**

Düz 23 il öncə - 1993-cü ilin aprelində də Azərbaycan ordusu Kəlbəcərin ermənilər tərəfindən işğalının cəmiyyətə gətirdiyi ruh düşkünlüyünü Füzuli rayonu ərazisində uğurlu hərbi əməliyyatla aradan qaldıra bilmişdi. Ordumuz o vaxt strateji önəm daşıyan Mənqələnata yüksəkliyini azad edib, Füzuli də daxil olmaqla, ətraf rayonların işğalının qarşını almışdı.

Həmin hərbi əməliyyatlara Milli Məclisin o vaxtkı sədri İsa Qəmbər Füzuliyə gedərək şəxsən rəhbərlik etmişdi. İsa Qəmbərlə yanaşı ölkənin siyasi rəhbərliyinə daxil olan bir sıra şəxslər də Füzulinin müdafiəsində birbaşa iştirak eləmişdilər.

**1993-cü ilin aprelindəki müharibə ilə 2016-cı ilin aprelindəki müharibənin şərtləri, şəraiti, Azərbaycanın hərbi, siyasi imkanlarının müqayisəsi üçün İsa Qəmbərlə söhbət etdik. İ.Qəmbər “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, müharibə elə bir ciddi məsələdir ona dövlət səviyyəsində yanaşılmalıdır:** “Bir neçə gün əvvəl facebook səhifəmdə tanınmış Çin hərbi strateqi Sun Tzu’nun 2500 il əvvəl yazılmış ”Hərb sənəti" kitabından bir sitat yaymışdım. Orada deyilirdi: “Savaş sənəti bir dövlət və millət üçün həyatidir. Ölüm və dirim arasında qalmaqdır. Mütləq yaxşı bilinməli və yaxşı gerçəkləşdirilməlidir. Heç bir səbəb onun yaxşı hazırlanmamasına, yaxşı gerçəkləşdirilməməsinə bəhanə və bəraət ola bilməz”. Savaş məcburi bir işdir. Normal, ağlı başında olan bütün insanlar sülh tərəfdarıdır, amma hücuma məruz qalan dövlət əlbəttə özünü müdafiə etməyi bacarmalıdır, torpaqlarını işğaldan azad etmək üçün hər şeyə hazır olmalıdır. Bu, şəksiz, şübhəsizdir.

Təbii ki, bu məsələlərə dövlət səviyyəsində yanaşılmalıdır. 1993-cü ilin aprelində Füzuli demək olar ki, 3 tərəfdən mühasirəyə alınmışdı. Rayonun işğalı təhlükəsi qonşu rayonlar üçün də təhlükə yaradırdı. O zaman Füzuliyə getməyimiz və qəhrəman əsgərlərimizin, Milli Qvardiyamızın və xüsusi təyinatlı dəstələrin fədakarlığı sayəsində Mənqələnata yüksəkliyini azad etməyimiz Füzulini, həmçinin digər rayonları işğaldan qurtardı. Bu, o zamanın bir faktı idi. Professional hərbçilər gözəl bilirlər ki, müharibədə ən önəmli məkan yüksəkliklərdir. Yaşayış məntəqələrindən öncə yüksəklikləri azad etmək, yüksəklikləri tutmaq vacibdir. Yüksəkliklər kimdədirsə, ərazi də, strateji üstünlük də həmin tərəfdə olur".

> **“Müharibədə ən önəmli məkan yüksəkliklərdir, yaşayış məntəqələrindən öncə yüksəklikləri azad etmək, yüksəklikləri tutmaq vacibdir”**

**İ.Qəmbər vurğuladı ki, bu baxımdan müharibənin indiki - 2 aprel mərhələsində baş verən hadisələr də diqqətlə öyrənilməli, araşdırılmalıdır:** “Baş verən hadisələr haqqında müxtəlif rəylər var. Bəziləri çox yüksək qiymətləndirirlər, bəziləri bunun dəyərini, miqyasını azaltmağa çalışır. Amma bütün ciddi ekspertlər qeyd edirlər ki, Azərbaycan ordusu müəyyən irəliləyiş əldə edib, bəzi yüksəklikləri nəzarətə götürüb. Təbii ki, bu, önəmli bir hadisədir. Bu üstünlükdən istifadə olunmalıdır. Eyni zamanda məncə 2 aprel əməliyyatını bütövlükdə Ermənistanı sülhə məcburetmə əməliyyatı adlandırmaq daha düzgün olardı. Çünki Ermənistanın nəzarəti altında olan, Ermənistan vasitəsilə Rusiyanın nəzarətində olan Dağlıq Qarabağ və işğaldakı ətraf rayonlarda 20 ildən artıqdır istehkamlar yaradılıb, müdafiə xətti qurulub, ərazi minalanıb və sair. Ermənistan və Rusiya hərbçiləri, həm də bəzi başqaları belə bir rəy yaratmağa çalışırdılar ki, bu, keçilməz istehkamlardır. Savaşın 2 aprel mərhələsində qəhrəman Azərbaycan əsgərləri və zabitləri sübut etdilər ki, onlar üçün keçilməyən heç bir hərbi istehkam yoxdur. Bu, hesab edirəm ki, ciddi bir hadisədir. Sadəcə olaraq indi Azərbaycan dövləti, Ermənistan tərəfi ədalətli sülhə razı olmağa doğru addımlar atmalıdır. Bunun üçün müəyyən şərait yetişib və bu şəraiti ciddi dəyərləndirmək lazımdır. Hesab edirəm ki, bu mərhələdə Azərbaycanın müasir silahlarının olması, Azərbaycan ordusunun qəhrəmanlığa və fədakarlığa hazır olması və cəmiyyətdəki yekdillik kifayət qədər ciddi faktorlardır. Əgər Azərbaycan hakimiyyəti bu faktorlardan istifadə etməyəcəksə, təbii ki, ciddi bir zaman itkisinə, daha ciddi itkilərə gətirib çıxara bilər”.

**İ.Qəmbər qeyd etdi ki, Elçibəy hakimiyyəti ilə indiki hakimiyyətin müqayisəsi isə geniş bir mövzudur:** “Elçibəy hakimiyyəti bir tərəfdən gerçək savaş aparırdı, gerçək bir şəkildə torpaqlarımızı işğaldan azad edirdi, bəllidir ki, bizim hakimiyyət dönəmində işğal olunmuş torpaqların üçdən ikisinə qədəri işğaldan azad edilmişdi. Eyni zamanda bizim hakimiyyət ciddi diplomatik iş aparırdı. Həmin diplomatik işin sayəsində BMT-nin Təhlükəsizlik Şurası işğal olunmuş Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılması haqqında qətnamələr qəbul etməyə başladı. Həmin diplomatik işin sayəsində 1993-cü ilin iyununda ABŞ, Türkiyə və Rusiyanın birgə təşəbbüsləri oldu və savaşın bitməsi, ədalətli sülhə nail olunması istiqamətində addımlar atılmağa başladı. Yəni hərbi komponentlərlə siyasi və diplomatik komponentlər bir yerdə hərəkətə gətirilməlidir. Bir yerdə bütün faktorlardan, amillərdən dövlətin, xalqın mənafeyi naminə istifadə olunmalıdır. Elçibəy hakimiyyəti buna qadir idi. İndiki hakimiyyət buna qadirdirmi, zaman göstərəcək”.

Xatırladaq ki, 1993-cü ildə Qarabağda kəskin müharibənin gedişi zamanı İsa Qəmbərin prezident Əbülfəz Elçibəyə onu müdafiə naziri təyin etməsi üçün təklif etdiyi, ancaq prezidentin bu təklifi qəbul etmədiyi barədə açıqlamalar verilib. Bu barədə ilk dəfə **AXC iqtidarının baş naziri Pənah Hüseyn** vaxtı ilə “7 gün” qəzetinə müsahibəsində demişdi. P.Hüseyndən sitat: “Bu, İsa bəyin öz təklifi idi. Həmin dövrdə vəziyyət olduqca ağırlaşmışdı. Kəlbəcər rayonunun işğal olunması və Füzuli ətrafında ağır döyüşlər zamanı İsa bəy təklif etdi ki, o Ali Sovetin sədri vəzifəsindən getməyə hazırdır. Belə hesab edirdi ki, dövlətin bütün qüvvələrinin müharibəyə səfərbərliyi üçün yüksək nüfuza malik şəxsin Müdafiə Nazirliyinə başçılıq etməsi vəziyyətdən çıxış olardı. Lakin Elçibəy belə hesab etdi ki, İsa Qəmbərin Ali Sovetin sədri kimi qalıb işləməsi daha vacibdir”.

**Elçibəy hakimiyyəti zamanında Milli Qvardiyanın zabiti olmuş polkovnik Əzizağa Süleymanov**un mediada 2014-cü ilin iyununda dərc olunan xatirələrində bildirilirdi ki, 1993-cü ilin aprelin əvvəlində Füzuli rayonu ermənilər tərəfindən işğal olunmaq üzrə idi və bu işğalın qarşısının alınmasında xüsusi xidmətlərinə görə ona və İsa Qəmbərə prezident Elçibəy Milli Qəhrəman adı veribmiş: “Milli Qəhrəmanı adı mənə 9 aprel 1993-cü ildə Füzuli rayonuna döyüş bölgəsinə gələn ölkə prezidenti Əbülfəz Elçibəy tərəfindən verilmişdi. Təqdimatın yazılması XDMX-nin rəisi general Vaqif Axundovun, Milli Qvardiyanın qərargah rəisi polkovnik-leytenant Tariyel Nəsirovun yanında MQ-nın elə həmin gün komandanı təyin edilmiş polkovnik-leytenant Tahir Məmmədova tapşırılmışdı. Milli Qəhrəman təqdimatının yazılmasını alay komandiri Elmar Hüseynova tapşırılmışdı. Tam arxayın idim ki, bu barədə prezidentin fərmanı olacaq. Amma Gəncə şəhərində Surət Hüseynovla əlaqədar siyasi vəziyyət elə bir həddə çatmışdı ki, heç təqdimat yada düşmürdü. Sonrakı illərdə Elçibəy tərəfindən mənə verilmiş Milli Qəhrəman adının mətbuatda rəsmi elan edilməməsinin səbəbi mənə bəlli olmuşdu. Sən demə, Milli Qəhrəman adı eyni vaxtda mənə və Füzuli döyüş bölgəsinə gəlib müdafiə şəraitini yaradan İsa Qəmbərə verilibmiş. İsa Qəmbər təvazökarlıq edərək öz adını fərmandan çıxartdırmaq istəyib. Buna görə də Elçibəy tərəfindən verilmiş fərmanın mətbuatda elan edilməsi ləngidilmişdi. Sonra isə iyun qiyamı baş verdi və hakimiyyət dəyişdi”.

**Ə.Süleymanovun bundan əvvəlki xatirələrinin birində isə bildirilirdi ki, Füzulidə İsa Qəmbər hərbçilərə “Ya hamımız burada şəhid olacağıq, ya da rayonun işğalının qarşısını alacağıq” deyib. Nəticədə Mənqələnata azad edilib və Füzulinin o zaman işğalının qarşısı alınıb.**

❑ **Etibar SEYİDAĞA**

> **“Savaşın 2 aprel mərhələsində qəhrəman Azərbaycan əsgərləri və zabitləri sübut etdilər ki, onlar üçün keçilməyən heç bir hərbi istehkam yoxdur”**

---

# 4 günlük müharibədən sonrakı müharibə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Ermənilərin ağlaşma günü - 24 aprel saxta soyqırım iddiasının ildönümü yaxınlaşır. Amma bu dəfə xain qonşularımız burunlarının seliyini daha tez axıtmağa başlayıblar. O da səbəbsiz deyil: Azərbaycan ordusunun blits-zəfəri ilə işğalşının 22 illik “qalib sindromu”nun sındırılması budəfəki apreli erməni üçün ikiqat qara gətirib, onu ikiqat-üçqat qəhərə, yasa boğub.**

Hətta 24 aprel mövzusu qismən arxa plana keçib. Çünki adətən bu ərəfədə ermənilərin qondarma iddia ilə bağlı vay-şivəni güclü olardı. İndi isə onlar Türkiyədən çox Azərbaycandan danışır, Azərbaycan əleyhinə təbliğat aparır, 4 günlük müharibədəki məğlubiyyətin əvəzini diplomatik-təbliğti uğurla - hansısa beynəlxalq təşkilatda bizə qarşı yeni sənəd-qərarların qəbulu ilə çıxmağa çalışırlar.

Hələ ki, bu səylər səmərəsizdir. O sırada Avropa Parlamentinin təzəcə yekunlaşan sessiyasında Qarabağ məsələsi gündəmə gətirilsə də, ermənilər və onların qurumdakı lobbistləri mövzunu əleyhimizə çevirə bilməyiblər. Yaxşı ki, Avropa Birliyi və onun əsas qurumu kimi Avroparlament Azərbaycanın Avropadan ötrü energetik, geosiyasi dəyərini yaxşı bilir.

Bu önəmin yanında əlbəttə ki, Avropanın sanksiya tətbiq elədiyi Rusiyanın forpostu olan bir marionet ölkənin - Ermənistanın cari maraqları qara qəpiyə belə dəyməz. Avropa olsa-olsa, erməniləri yenə ənənəvi “aldatma əmzik”lə - saxta soyqırıma məsələsi ilə ovundura bilər. Necə ki, bu dəfə də Türkiyə əleyhinə analoji qətnamə qəbul eləməklə qurum erməniləri bir növ başından edib.

Söz yox ki, Türkiyəyə erməni kartı ilə hücum Azərbaycana da hücum deməkdir. Hərçənd, Avropa Parlamenti yeni bir şey də icad eləməyib. 1987-ci ildəki mövqeyini 2015-ci ildə təzələdiyi kimi, 2016-da bir də təzələyib. Amma arxayınlıq üçün də əsas yoxdur. Əksinə.

Biz indi ermənilərin Azərbaycan qarşı növbəti təxribatına hazır olmalıyıq. Söhbət ondan gedir ki, onlar gələn həftə (aprelin 18-də) başlayacaq Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasına 2-5 aprel olaylarını çıxarıb, qabaqdangəlmişik etməyə, guya Azərbaycanın cəzalandırlmasına nail olmağa hazırlaşırlar.

Ümid edək ki, nümayəndə heyətimiz qardaş Türkiyə, dost-müttəfiq Gürcüstan və Ukrayna, digər Avropa ölkələrinin təmsilçiləri ilə birgə diplomatiya alanında düşmənin təxribatlarını cəbhədəki kimi onun öz əleyhinə çevirə biləcək. Bunu asanlaşdırmaq üçün pas da verə bilərik: düşmən əleyhinə təbliğatda belə bir faktdan da istifadə eləmək olar ki, 4 günlük müharibə zamanı Ermənistanın müdafiə nazirinin müavini, general Arkadi Ter-Tadevsoyan bölgədən keçən neft-qaz kəmərlərinin hədəfə alına biləcəyini söyləmişdi. Bu isə bilavasitə, Qərbə, Avropa Birliyinə, onun regiondakı həyati maraqlarına meydan oxumaq, eyni dərəcədə Rusiyanın əlinə işləməkdir.

Müxtəsəri, ermənilərin AŞPA-nın bundan əvvəlki qış sessiyasındakı uğurunu təkrarlamasına heç cür imkan verməmək olmaz. Bunu ən əvvəl Azərbaycan əsgəri və şəhidləri hesabına qazanılmış qiyməli blits-zəfərin effektini saxlamaq zərurəti diktə edir.

Unutmayaq ki, Qarabağ uğrunda mübarizə artıq həm də siyasət meydanlarında, təbliğat müharibələri ilə aparılır. Təbliğat savaşını udmadan, əsl müharibə meydanındakı qələbənin də önəmi qalmır, sıfırlanır.

**Müharibə indi başlayır. Hər mənada...**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016



# Cəmiloğli Mustafa bəy - Mandelanın xələfi

Xalid KAZIMLI

**İndi sizə nəql edəcəyim hadisə 2014-cü ilin iyun ayının 3-də Polşada baş verib. Həmin gün Varşavadakı kral sarayında Krım türklərinin (tatar) lideri və Ukrayna parlamentinin üzvü Mustafa Cəmil Krımoğluya "Solidarnost mükafatı" təqdim edilib.**

Mükafatlandırma mərasimindən əvvəl Polşanın prezidenti xaricdən dəvət olunmuş yüksək mənsəbli qonaqlara - prezidentlərə, baş nazirlərə, xarici işlər nazirlərinə ziyafət verirmiş. Ziyafətdə 25-30 qonaq, o cümlədən ABŞ prezidenti Barak Obama da olub. Mustafa Cəmil Krımoğlu Obama ilə üzbəüz oturubmuş. Ziyafət başlamazdan öncə Obama yerindən qalxıb, Krım türklərinin liderinin yanına gəlib, onu təbrik edib və onlar Ukrayna və Krım haqda söhbət ediblər.

Həmin il Rusiya prezidenti Vladimir Putin də Krımoğlu ilə görüşmək üçün ona xüsusi ismarış və elçi göndərmişdi . Onların arasında üzbəüz görüş baş tutmasa da, Putin və Krımoğlu Tatarıstanın eks-prezidenti Mintimer Şaymiyevin araçılığı ilə telefonla danışmışdılar.

Daha sonra Türkiyəyə yolu düşən Krımoğlu Türkiyə prezidenti Abdullah Gül və o zamanlar baş nazir olan indiki prezident Rəcəb Tayyib Ərdoğanla görüşmüşdü. Hər iki halda dəvət prezident və baş nazirdən gəlmişdi.

Öz ölkəsində Krımoğlu həmişə Ukrayna prezidentlərinin - Kuçma, Yuşşenko, Yanukoviç və Poroşenkonun diqqət mərkəzində olub. Onlar həmişə çalışıblar ki, Mustafa Cəmil bəydən dəstək alsınlar.

Mustafa Krımoğlu isə nə prezidentdir, nə baş nazirdir. O, adi deputatdır, dövlət müşaviridir və Krımda yaşayan etnik azlığın lideridir.

Dünyanın heç yerində ona vəzifəsinə görə hörmət qoymurlar, hətta Ukrayna Ali Radasının üzvü olmasa da, dünya liderləri Mustafa Cəmiloğlu ilə görüşməyi, söhbətləşməyi özləri üçün şərəf bilirlər.

Niyə? Ona görə ki, o liderdir, azadlıq, müstəqillik, mübarizə simvoludur.

Dünya ictimaiyyəti üçün Nelson Mandela kim idisə, Mustafa Cəmiloğlu da odur. Bəlkə onun şöhrəti Nelson Mandelanınkı qədər deyil, amma sürgünlərdə, həbsxanalarda çəkdiyi əziyyət onunku qədərdir, keçdiyi mübarizə yolu heç də Mandelanınkından hamar olmayıb, o da afrikalı siyasi lider kimi sona qədər prinsiplərinə sadiq qalıb.

Obama Krımoğlunun şəxsiyyətinə hörmətlə yanaşan ilk ABŞ prezidenti deyil. Bundan əvvəl bu dövlətin ən parlaq prezidentlərindən biri olan Ronald Reyqan da Mustafa Krımoğlunun şəxsiyyətinə ehtiramla yanaşmış, onun, akademik Andrey Saxarovun və bir başqa dissidentin azad olunması üçün SSRİ rəhbəri Qorbaçova ağız açmışdı.

Mustafa Cəmil bəy Bakıda da olub, çoxsaylı azərbaycanlılarla görüşüb. Elə Ukraynanın özündə də azərbaycanılarla onun sıx əlaqələri var. Sinninin bu çağında (73 yaşı var) o, həmişə siyasi səciyyəli səfərlərdə, görüşlərdə olur, evi də daima qonaq-qaralıdır.

Həyatını öz xalqının xoşbəxtliyi, təhlükəsizliyi, hüquqları üçün mübarizəyə həsr edən bu insan hər yerdə ehtiramla qarşılanır.

Bu baxımdan İstanbulda keçirilən İslam Əməkdaşlığı Təşkilatının sammitində Mustafa Krımoğlunun Azərbaycan prezidenti və xarici işlər naziri Elmar Məmmədyarovla qısa müddətli görüşməsi heç bir halda kimdəsə qəzəb doğura bilməzdi. Prezidentin mətbuat xidmətinin rəhbərinin bu mövzuya dair açıqlaması bir qədər qəribə səsləndi.

Düzdür, vaxtilə Krımoğlunu, eləcə də onun vasitəsilə Krım tatarlarını öz tərəfinə çəkmək, Krımın aborigen əhalisinin iradəsini əsas götürərək yarımadanın ilhaqını legitimləşdirmək istəyən, ancaq buna müvəffəq olmayan Putin onun dönməzliyindən narazı qalmış ola bilər, amma yəqin ki, Krımoğlunun personasına düşməncəsinə yanaşmaz. Çünki o da krımlı liderin keçmişini, mübarizəsini, əqidə və prinsiplərini bilir.

Rusiya təhlükəli dövlətdir, onu idarə edənlər kinlidir, məkrlidir, onlarla ehtiyatlı olmaq lazımdır, buna söz yox, amma əgər dövlətimizin başçısı Putinin düşmən saydığı Ərdoğanla tez-tez görüşüb-öpüşür, müzakirələr aparırsa, bunun qarşısında Mustafa Krımoğlu ilə görüş heç cür təhlükəli ola bilməzdi.

Ayrıca bu görüş hər bir siyasi liderə şərəf, hörmət-izzət gətirən tarixi hadisə deməkdir.

**P.S.** *Mustafa bəyin sənədində əsl adı belədir: Mustafa Əbdülcəmil oğlu Cəmilov (Krımoğlu).*

# Tofiq Yaqublunun MŞ-nın toplantısında iştirakını Müsavat necə qarşıladı?

## Elman Fəttah: "Tofiq bəy azad bir insandır"

**Müsavat başqanının bir müddət əvvəl həbsdən çıxan müavini Tofiq Yaqublunun Milli Şurada qalması xeyli suallar yaradır. Onun bu günlərdə Milli Şuranın Koordinasiya Mərkəzinin toplantısında iştirak etməsi də birmənalı qarşılanmır. Tofiq Yaqublu özü bununla bağlı musavat.com-a açıqlamasında bildirib ki, sözügedən toplantıda iştirak etməsi partiyası tərəfindən normal qarşılanıb:**

"Mənə bununla bağlı Müsavat Partiyasından heç bir irad olmayıb. Həmin görüşdən sonra Müsavat Partiyasının toplantısı da olmayıb. Amma başqan Arif hacılı ilə, digər divan üzvləri birlikdə müzakirəmiz olub. Sumqayıtda şəhidlərin qəbrini ziyarətə gedərkən, həmçinin müsavatçı dostumuzun hüzr mərasimində iştirak zamanı bunu müzakirə etmişik, heç bir etiraz olmayıb, normal qarşılanıb".

**O, toplantıda iştirak etməsinin səbəblərindən də danışıb:** "Onları görmək vəfa borcu idi. Məsələn, mən həbsxanadan çıxmışdım. "Yeni Müsavat" qəzeti kimi, Müsavat Partiyası kimi Milli Şura da mənə çox ciddi dəstək, siyasi dəstək vermişdi. Məni müdafiə etmişdilər. İnsanlara bir təşəkkür etmək lazım idi, bu, məsələnin bir tərəfi. Mən hələ Milli Şurada qalmaqda davam edirəm, həm də o tərəfi var. Yəni görüşdük, salamlaşdıq. Sözsüz ki, siyasi proseslər haqqında, cəbhə bölgəsində olan məsələlər haqqında da danışdıq. Amma heç bir irad, ittiham-filan olmadı".



Tofiq Yaqublu

**T.Yaqublu qeyd edib ki, iştirak etdiyi görüş Milli Şuranın Koordinasiya Mərkəzinin toplantısı idi:** "Mən isə Koordinasiya Mərkəzinin üzvü deyiləm, ancaq Milli Şuranın sıravi üzvüyəm. Ona görə Milli Şuranın toplantılarına qatılacam. Hazırda davamlı tədbirlər olmur. Olsa, məsələn etiraz aksiyası olacaqsa da, məmuniyyətlə qatılacam. Məsələn mən Milli Şuranın üzvü olmasam da, mitinqlərə qatılacam, bu rejimə qarşı tədbirlərdə iştirak edəcəm. Müsavat isə demokratik təşkilatdır. Hər şeyə bu mövqedən yanaşır. Ona görə bir problem görmürəm".

**Müsavat başqanının digər müavini Elman Fəttah** isə bildirib ki, bu cür məsələlərə partiya səviyyəsində müzakirə olunduqdan sonra münasibət bildirmək olar: "Bu məsələyə münasibətim yoxdur. Ona görə bizdə partiyada bu cür məsələlər, həssas məsələlər müzakirəyə çıxarılır, sonra münasibət bildiririk. Yəni partiyada müzakirə olunmadan biz müzakirə bildirmirik. Əgər müzakirə olunsa, fikir bildirmək olar. Ancaq bu məsələ ilə bağlı partiyada müzakirənin olub-olmayacağını da bilmirəm. Keçən dəfə oxşar məsələdə demişdik ki, Tofiq bəy sərbəst, azad bir insandır. Siyasi fəaliyyətini azad bir şəkildə müəyyənləşdirir".

❑ Röya RƏFİYEVA



# "Ölkənin bank sistemi iflic haldadır"

## Vahid Əhmədov: "Bankların rəhbərlərini Milli Məclisə dəvət edək, ciddi müzakirələr aparaq"

**"Azərbaycan ordusunun təməlində Azərbaycan iqtisadiyyatı, prezidentin diqqəti dayanır. Biz ordumuzun daha da güclü olmasını istəyiriksə, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində dövlət başçısının qərarlarını, sərəncamlarının icra olunmasına çalışmalıyıq".**

**Deputat Vahid Əhmədov** bu fikirləri dünən parlamentdə keçirilən müzakirələr zamanı deyib. Parlament müxbirimiz xəbər verir ki, deputat ölkənin bank sistemi ilə bağlı narahatlığını dilə gətirib: "Bu gün ölkənin bank sistemi iflic haldadır. Bu gün kənd təsərrüfatının inkişaf etdirilməsi prioritetlərdən biridir. Ancaq kənd təsərrüfatının inkişafında maliyyə amili mühüm yer tutur. Hazırda banklarda maliyyənin 83 faizi dollarladır. Manatla əməliyyatlar demək olar ki, həyata keçirilmir. Mən payız sessiyasında təklif etmişdim ki, gəlin bank rəhbərlərini Milli Məclisə dəvət edək, onlarla müzakirə aparaq!"

**V.Əhmədov real təhlükənin qarşısını almağa çağırıb:** "Əgər biz qısa müddətdə bank sistemində ciddi islahatlar həyata keçirə bilməsək, bank sistemində çox ağır vəziyyət yaranacaq. Banklar əhaliyə kredit verməlidir. Amma əhali hətta 5-10 min manatlıq əmanətlərini də banklardan götürə bilmir. Bir daha təklif edirəm ki, bankların rəhbərlərini Milli Məclisə dəvət edək, ciddi müzakirələr aparaq".

❑ ELŞAD

# İlqar Əliyevin həbs olunduğu gün şam yeməyi müxalifətçidən gəlib - heyrətamiz fakt

## Mərhum polkovniki türmədə acından ölməyə qoymayan müxalifətçi kim olub?

### Pərviz Həşimli: "O, vəkili vasitəsilə bildirmişdi ki, jurnalistlərə və müxalifətçilərə qarşı əməliyyatlar təşkil etdiyinə görə peşmandır"

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin ötən ilin dekabrında intihar etməsi uzun müddət medianın gündəmində oldu. Saxlandığı 1 saylı İstintaq Təcridxanasında ipdən özünü asaraq intihar edən İ.Əliyevin ətrafındakı sirr pərdəsi isə hələ aralanmır.**



İlqar Əliyev

Martdakı əfv fərmanı ilə azadlığa çıxmış **jurnalist Pərviz Həşimli** isə "Yeni Müsavat"a açıqlamasında İ.Əliyevlə bağlı cəmiyyətin bilmədiyi bir nüansı açıqladı. P.Həşimli bildirdi ki, İ.Əliyev həbs olunan gün onu ac saxlayıblar. Öncə istintaqa aparılan, ardınca üzləşdirmə, bəzi istintaq hərəkətlərinə görə türmə xaricində olan MTN polkovniki 1 saylı İstintaq Təcridxanasına geri qaytarılanda isə yemək vaxtı bitib və türmənin yeməkxanası qapalı olub: "Mənim eşitdiyimə görə, yanındakı kameradan cəbhəçi Asif Yusifli ona yemək göndərb. İlqar Əliyev isə sonradan öz vəkilinə təəssüflə bildirib ki, "20 ilimi müxalifətə qarşı həsr elədim. Amma onlar belə bir gündə mənə yemək verdilər". Çox ciddi təəssüf hissi keçirirmiş ki, jurnalistlərə, ictimai fəallara qarşı qara piar kampaniyasında iştirak edib, bu kampaniyaları təşkil edib".

Müsahibimiz dedi ki, İ.Əliyevin intiharı ilə bağlı isə hər hansı özəl məlumata malik deyil. Dediyinə görə, bu barədə də ancaq türmədə eşidib.

Qeyd edək ki, İ.Əliyev MTN-lə bağlı başlanmış cinayət işi ilə əlaqədar həbs olunub.

Oktyabrda həbs olunan İlqar Mustafa oğlu Əliyev Cinayət Məcəlləsinin 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309 (vəzifə səlahiyyətlərini aşma) və 302-ci (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma) maddələri ilə ittiham olunurdu. Polkovnik-leytenant Əliyev İlqar Mustafa oğlu - 2011-ci ilin martında Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdi.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

# "Azərbaycan prezidentinin Amerika səfəri önəmli bir dönüş nöqtəsidir"

## Robert Sekiuta: "İnsan haqları, demokratiya və iqtisadiyyatın inkişafı kontekstində qanunun aliliyi məsələləri də müzakirə edilib"

**Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Robert Sekuta "Amerikanın Səsi" radiosuna müsahibə verib. Onun müsahibəsini ixtisarla təqdim edirik. Suallara cavab verməmişdən öncə səfir Azərbaycan prezidentinin Amerikada keçirdiyi görüşlər və müzakirə olunan məsələlərlə bağlı məlumat verib:**

- Prezident İlham Əliyev bu yaxınlarda ABŞ-a çox uğurlu bir səfər edib. Bu səfərin baş tutması üçün hər iki ölkə səylə çalışıb. Bizim fikrimizcə, səfər çox uğurlu olub. Bildiyiniz kimi, hər iki tərəf Nüvə Təhlükəsizliyi Sammiti çərçivəsində hər iki ölkənin prezidentlərinin görüşünün baş tutması üçün çox çalışıb. Bundan əlavə, prezident Əliyev ABŞ hökumətinin digər yüksək rütbəli nümayəndələri ilə də görüşüb. Onların arasında vitse-prezident, dövlət katibi və kommersiya məsələləri üzrə katibin də adını çəkmək olar. Özünüz də şahidi olduğunuz kimi həmin görüşlərdə bizim münasibətlərimizin bir sıra aspektləri müzakirə edilib. Burada nüvə təhlükəsizliyi məsələləri barədə söhbətlər aparılıb. Biz Azərbaycanın Nüvə Materialının Fiziki Mühafizəsi Haqqında Konvensiyaya düzəlişin ratifikasiya etməsini dəyərləndiririk, bu həmçinin vacib məsələ idi. Bundan əlavə bu bölgədə ümumi təhlükəsizlik məsələləri müzakirə mövzusu olub. Əlbəttə, müzakirə mövzuları arasında iqtisadi məsələlər də olub. Bildiyiniz kimi dövlət katibi "Cənub Qaz" Dəhlizi, eyni zamanda Azərbaycanın öz iqtisadiyyatını diversifikasiya etməsi ilə bağlı atdığı addımları təqdir edib. Bundan başqa, müzakirə edilən məsələlər arasında ABŞ investisiyalarının Azərbaycana cəlb olunması, bunun üçün yumşaq infrastruktur adlandırılan addımların atılması, ümumilikdə iqtisadiyyatın inkişafı məsələləri var. Bildiyiniz kimi neft qiymətlərinin enib-qalxması çox sayda Azərbaycanlıların maliyyə itkiləri ilə nəticələnib, bu Birləşmiş Ştatların bölgələrinə də birbaşa təsir göstərir. Bu məsələ ilə bağlı bizim ölkənin təcrübəsi var. Biz bu sahədə bizim malik olduğumuz təcrübənin mübadiləsini apara bilərik və eyni zamanda Azərbaycanın təcrübəsindən də bəhrələnə bilərik, - bu qarşılıqlı əməkdaşlıqdır. Mənim sadaladığım bu və digər məsələlər Vaşinqtonda aparılan müzakirələrin mühüm hissəsi olub.

Əlbəttə, insan haqları, demokratiya və iqtisadiyyatın inkişafı kontekstində qanunun aliliyi məsələləri də müzakirə edilib. O cümlədən, həm dövlət katibi, həm də vitse-prezident Azərbaycanda son dövrlərdə atılan addımları bəyəndiklərini, təqdir etdiklərini bildirib. Eyni zamanda bu cür pozitiv, müsbət addımların gələcəkdə də atılmasına ümid etdiklərini bildiriblər. Xülasə olaraq belə deyə bilərəm ki, burada yalnız uğurlu addım atıldı, təbrik edirəm, bununla da məsələ bitmir. Bu önəmli bir dönüş nöqtəsidir, önəmli bir mərhələdir ki, burada tərəflər bu vaxta qədər atılmış addımları təhlil edir, nəzərdən keçirir, gələcəkdə birgə ata biləcəkləri addımları müzakirə edirlər. Hər iki ölkə üçün əhəmiyyətli olan bir sıra məsələləri nəzərdən keçirirlər və eyni zamanda regional baxımdan əhəmiyyətli olan məsələləri də gözdən keçirirlər.

Sözümün davamı olaraq qeyd etmək istəyirəm ki, aprelin 12-də prezident İlham Əliyev Amerika Ticarət Palatası ilə görüş keçirdi və görüşdə biz ABŞ biznesinə və eyni zamanda Azərbaycan iqtisadiyyatına birbaşa təsir göstərən məsələlərlə bağlı müzakirələr apardıq. Burada əlbəttə müzakirə mövzusu iqtisadiyyatın diversifikasiyası və inkişaf etdirilməsi ilə bağlı bizim birgə atılması gərəkən addımlar sahələri müəyyən edib, - bunların arasında kənd təsərrüfatı, yüksək texnologiyalar, yəni İKT, eyni zamanda turizmi və "İpək Yolu" məsələsini də nəzərə alaraq, - bu kontekstdə Azərbaycanın nəqliyyat qovşağına, mərkəzinə çevrilməsi və istər şimal-cənub, istəsə də şərq-qərb istiqamətində yüklərin, turistlərin və xidmətlərin daşınması ilə ölkənin iqtisadiyyatına əlavə dəyər qatılması barəsi işlər görürük və hansı işləri görməyi planlaşdırdığımızdan danışdım. Eyni zamanda biz Azərbaycana onun nəqliyyat qovşağına çevrilməsi sahəsində iş aparırıq.

Hər iki tərəf bu kimi fikir və təcrübə mübadilələrinin vacibliyini qeyd etdi və onu da bildirdilər ki, bu kimi görüşlər, mübadilələr çox faydalıdır.

***- Siz prezidentlə görüşdə bildirdiniz ki, Amerika Azər-***

***- Azərbaycan prezidenti İlham Əliyev ABŞ prezidenti Barak Obamanın dəvəti ilə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak edib. Nüvə təhlükəsizliyi sahəsində ABŞ-Azərbaycan əlaqələrinin indiki səviyyəsi qane edicidirmi? Bu sahədə perspektivdə ikitərəfli və ya çoxtərəfli yeni layihələr varmı?***

lən və sonradan verilən bəyanatlarla da tanışsınız. Onlar Birləşmiş Ştatlar üçün münaqişənin həllinin nə dərəcədə vacib olduğunu göstərir.

İndi bizim diqqət yetirməli olduğumuz vacib məsələ tərəflərin atəşkəs rejiminə ciddi əməl etməsidir. Tərəflərin Minsk qrupu həmsədrləri ilə birgə irəliyə doğru yolun tapılması və hərtərəfli nizamlanma və həllin əldə olunmasına çalışmalarıdır. Bu ölkədə ol-



**"Hər iki ölkə üçün əhəmiyyətli olan bir sıra məsələləri nəzərdən keçirirlər və eyni zamanda regional baxımdan əhəmiyyətli olan məsələləri də gözdən keçirirlər"**

oldu. Eyni zamanda xüsusi diqqət cəlb edən o olmuşdur ki, bizim bu çox pozitiv istiqamətdən birgə davam etməyimiz və ikitərəfli əlaqələrimizi gücləndirməyimiz də qeyd edilməlidir.

***- Azərbaycan prezidenti ilə Azərbaycandakı Amerika Ticarət Palatasının nümayəndə heyətinin görüşü barədə təəssüratlarınızı bilmək maraqlıdır. Görüşdə diqqətinizi çəkən əsas maqamlar nə oldu?***

- ...Prezident Əliyev hazırda iqtisadi vəziyyət və iqtisadi böhranın Azərbaycana təsirini necə gördüyü barədə fikirlərini bölüşdü. Onu da qeyd etmək lazımdır ki, bəli neft-qaz vacibdir, amma yalnız bu məsələyə köklənib, bu məsələdə, bu sahədə qalmaq olmaz. Oradan uzaqlaşaraq digər vacib sahələrə doğru da irəliləmək lazımdır. Eyni zamanda prezident diqqət mərkəzində olan və gələcəkdə inkişaf etdirilməsi nəzərdə tutulan iqtisadiyyat sahələrini qeyd etdi. Azərbaycan hökuməti həmin də danışıldı. Eyni zamanda, bayaq da qeyd etdiyimiz kimi infrastruktur adlandırılan, çox önəmli məsələlər, - qanunun aliliyi, islahatlar *(xüsusilə gömrük və vergi sahəsində)*, korrupsiya ilə mübarizə, şəffaflığın artırılması məsələlərindən də prezident bəhs etdi. Bizim tərəfdən də Amerika Ticarət Palatasının İdarə Heyətinin üzvləri burada nə ilə məşğul olduqlarını, hansı fəaliyyət göstərdiklərini və sahibkarlıq sahəsində imkanların, iş yerlərinin artırılması üçün hansı addımların atılmasının vacib olduğundan bəhs etdilər. Bildiyiniz kimi, kiçik və orta sahibkarlıq işçilərin və iş yerlərinin sayının çox olması ilə diqqəti çəkir. Mən isə öz növbəmdə USAİD *(ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi)* vasitəsi ilə sahibkarlığın inkişaf etdirilməsi üçün və buraya əsasən xanımların, gənclərin cəlb edilməsi və bunun vasitəsi ilə iqtisadiyyatın inkişaf etdirilməsi, o cümlədən kənd təsərrüfatı sahəsində han-

***baycanın güclü, çiçəklənən və sabit ölkə olmasına kömək etmək istəyir. Bunun üçün tərəflər hansı addımları atmalıdır? Xüsusilə də sabitlik baxımından. Dünyada bir anlam var, sabitlik üçün makroiqtisadiyyat, makromaliyyə, demokratiya və insan hüquqları qorunmalıdır. Bu dörd amil bir yerdə olmayanda sabit ölkə sayılmır.***

- Mən Azərbaycanda olandan bəri ABŞ-la Azərbaycan arasında müzakirə mövzusu sizin qeyd etdiyiniz məsələlər olub. Yəni bizim məqsədimiz Azərbaycanla güclü və yüksək pozitiv əlaqələrə malik olmaqdır. Biz istəyirik ki, Azərbaycan güclü, çiçəklənən, demokratik bir ölkə olsun və azərbaycanlılar öz ölkələri üçün istədikləri yerinə yetirə bilsinlər. Bununla bağlı 1992-ci ildən ABŞ Azərbaycana 1,3 milyard ABŞ dolları məbləğində yardım edib.

Onu da bildirmək istəyirəm ki, biz Azərbaycana müəyyən sahələrdə öz dəstəyimizi davam etdirəcəyik. Bunların arasında təhlükəsizlik, iqtisadi inkişaf, qanunun aliliyinin gücləndirilməsi və sabitliyin digər elementləri də daxildir.

***- Azərbaycanda aparılan son islahatlar ABŞ investisiyalarının ölkəyə cəlbi üçün bəs edirmi? ABŞ investisiyalarının qeyri-neft sektoruna cəlbinə daha çox hansı sahədə islahatlar təkan verə bilər? Məsələn, məhkəmə islahatları, demokratiya, hüquq, qanunvericilik, gömrük və s.***

- Bu bir prosesdir. İkitərəfli münasibətlərimizdə iki həftə bundan əvvəl başlayaraq biz, bu proseslərə müəyyən mərhələləri olan bir yol kimi baxırıq. Sizin verdiyiniz bu sual və sualda qeyd etdiyiniz məsələlər bizim kommersiya məsələləri üzrə katibin prezident İlham Əliyevlə görüşündə də müzakirə edilib. Onu da əlavə etmək istəyirəm ki, ABŞ-ın Azərbaycandakı Ticarət Palatası "Ağ Sənəd" adlanan bir sənədin hazırlanmasının son mərhələsindədir. Deyirəm ki, gəlin biz bu sənədin hazır olmasını gözləyək. Çünki həmin o sənədə əsaslanaraq hesab edirəm ki, müəyyən məqamlara və ya verdiyiniz suallara ətraflı cavab ala bilərik.

- Azərbaycan Beynəlxalq Atom Enerjisi Agentliyi tərəfindən Nüvə Materiallarının Fiziki Müdafiəsi haqqında Konvensiyaya edilmiş düzəlişləri ratifikasiya etməsi ilə mühüm bir addım atıb. Bildiyiniz kimi Milli Məclis xüsusi bir sessiya keçirib, bundan sonra bu düzəlişlər prezident tərəfindən təsdiqlənib və Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən təqdim edilib. Azərbaycan önəmli, vacib addım atdı. Çünki bu qanunun qüvvəyə minməsi üçün yetərli sayda ölkələrin olması lazım idi. Azərbaycan məhz öz ratfikasiyası ilə bunu təmin edib. Sammitdə qarşıya qoyulan məsələlərdən biri də terroristlərin nüvə materialını əldə etməsinin qarşısının alınmasıdır. Bu işdə də hər bir ölkə əməkdaşlıq və kömək etməlidir. Azərbaycan terrorizmlə mübarizə sahəsində vacib addımlar atır və önəmli səylər göstərir.

***- Martın 31-də ABŞ-ın vitse-prezidenti Co Bayden Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu davamlı sabitlik, təhlükəsizlik və regionun tərəqqisi naminə əhatəli həllinin vacibliyni vurğulayıb. Aprelin 2-də Dağlıq Qarabağda qanlı toqquşmalar başladı və bu qanlı toqquşmalar Rusiya prezidentinin hər iki prezidentlə telefon danışığından sonra atəşkəsin əldə olunması ilə nəticələndi? Münasibətinizi bilmək maraqlıdır. Niyə belə oldu? Münaqişənin gələcək həllini necə görürsünüz, necə olmalıdır?***

- Səfir Ceyms Uorlik keçən həftə burada olarkan bu məsələ ilə bağlı fikirlərini bildirmişdi. Məsələ gəldikdə isə bir neçə məqamı qeyd etmək istəyirəm. Bunlardan birincisi ABŞ bütöv, azad və dinc şəraitdə yaşayan Avropa ideyasını bəyan edib. Amma məcazi şəkildə desək hansısa bir parçanın üzərində dəliklər varsa, süzülmələr varsa biz o parçanın bütöv, salamat olmasından danışa bilmərik. Onu da qeyd etmək istəyirəm ki, bizim Minsk qrupunda həmsədrimiz olan səfir Uorliki də mən uzun müddətdir tanıyıram. Bilirəm ki, o həmsədrlərdən biri kimi hərtərəfli nizamlanma, bu istiqamətdə irəliləyiş əldə edilməsi üçün çox səylə çalışır. Əlbəttə, siz Sammit vaxtı Vaşinqtonda veri-

duğum müddətdə məcburi köçkünlərlə görüşlərimdən gəldiyim qənaət və əldə etdiyim biliklər bundan ibarətdir ki, bu münaqişənin çox böyük insani zərbəsi də vardır. Çox vacib bir məsələ var. Biz, son döyüşlərdə həyatını itirən insanlarla bağlı tərəflərə, onların ailələrinə, yaxınlarına baş sağlığı vermişik. Amma, bu məsələnin problemi yaşan insanlarla bağlı ağırlığı qalır. Çox vacibdir ki, tərəflər bir araya gəlsinlər, irəliyə doğru yol tapsınlar. Minsk qrupunun həmsədrlərinin vəzifəsi və tapşırığı məhz bu işə kömək etməkdir. Səfir Uorlik prezident Əliyevin və prezident Sarkisyanın atəşkəs rejiminə sadiq olduqları fikrini qeyd edərkən hər iki prezidentin, hər iki tərəfin bu istiqamətdə addım atmasının vacibliyini də vurğulamışdı.

***- Danışıqlarda hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti fəallarının həbsdən azad edilməsi alqışlanıb, Azərbaycan bu istiqamətdə inkişafa çağırılıb. Bu istiqamətdə danışıqlar mövcuddurmu və ya perspektivdə nə gözləmək olar?***

- Bu mən ölkəyə gələndən Azərbaycan hökuməti ilə apardığım danışıqların mövzularından biridir. Eyni zamanda bu, Vaşinqtonda ən yüksək səviyyədə müzakirələr mövzusu olub. Bəli, biz Azərbaycanın bu istiqamətdə atdığı addımları təqdir edirik və düşünürük ki bu addımlar davam etməlidir. Onu da bildirmək istəyirəm ki, ABŞ-da daxil olmaqla, demokratiya bir prosesdir. Bu proses bəzən hansısa bir ölkənin və ya tərəfin nə etdiyini nəzərdən keçirməsi və həyata keçirdiyi fəaliyyəti necə və daha yaxşı fərqli şəkildə etməsi barədə düşünməsindən ibarətdir. Biz Azərbaycanla bu sahədə işimizi davam etdirəcəyik və bu məsələ Azərbaycanın sabitliyi baxımından vacibdir. Bildiyiniz kimi Azərbaycan mürəkkəb bir yerdə, mövqedə yerləşir. Bunu nəzərə alaraq, biz həm Azərbaycan hökuməti və azərbaycanlılarla işləyərək Azərbaycanın güclü, çiçəklənən, sabit ölkə olması və bu mürəkkəb bölgədə azərbaycanlıların görmək istədiyi bir ölkə, bir dövlətin qurulması üçün zəruri addımların atılmasında öz köməyimizi göstərəcəyik.

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016



# Köhnə üsul

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən Hadı müəllimdən təzə yazıb mürəkkəbi qurudurdum ki, başqa deputatlarımız estafeti ələ keçirdilər. Zahid Oruc ərz etdi ki, gərək biz dövlət olaraq işıqlı dindarlar yetişdirək. Nə üçün dindar yetişdirməliyik, bunun işığının pulu hansı hesabdan ödəniləcək - deputat heç nə deməmişdir.**

Milli Məclisin ailə, qadın və uşaq komitəsinin sədri Aqiyə Naxçıvanlı isə gənclərin facebook sosial şəbəkəsi vasitəsi ilə tanış olub evlənməsini pisləmişdir. Deyir belə ailələr tez dağılırlar, gərək evlənənlər arasında tanışlığı köhnə qaydada ağsaqqal-ağbirçəklər qursun.

Burada bir haşiyə çıxım. Məncə, deputatxanamızda o cür adda komitə olması insan haqlarına ziddir, kişilərin hüquqlarını tapdamaqdır. Əgər ailədən söhbət gedirsə, bunun içində qadın da var, əlavə niyə yazırsan? Bəlkə eynicinsli nikahlara işarə vurulur?

İkincisi, bu Aqiyə xanım yanılmıramsa üstəlik bizim Müəllimlər İnstitutu adlı ali məktəbin rektorudur. Təsəvvür edin, oranı bitirənlər hansı ağılda olacaqdır. Pis mənada demirəm. Mən özüm dünəndən xeyli ağıllanmışam.

Üçüncüsü, çox maraqlıdır ki, bu xanım özünə Naxçıvanlı soyadı götürsə də əslində Oğuz rayonunda doğulmuşdur. Sadəcə, sovet vaxtı bir neçə il Naxçıvanda partiya işində çalışmışdır. Əhsən. Trendi vaxtında yaxalamaq bu olmalı! Ağlım olsaydı vaxtında Zamin Şərurlu Ordubadi Sədərəkzadə (hər ehtimala qarşı hamısı olsun) imzası götürərdim. Düzdür, Şərurda partiya işində çalışmamışam, heç qəzet də çıxartmaq nəsibimiz olmayıbdır, ancaq Naxçıvana gedən qatarlar doğulduğum Füzuli rayonundan keçirdi. Buna əsasən özümə necə deyərlər, müvafiq imza götürə bilərəm (Məncə, hələ gec deyil, bunu hörmətli oxucuların referendumuna buraxıram: nə deyirsiniz?)

Qayıdaq tanışlıq məsələsinə. Fikrimcə, Aqiyə xanım düz deyir, bəzi ailə quranlar yaxşı olar heç evlilik müddətində də tanış olmasınlar. Yaşamaq üçün bunlar önəmli deyildir. Ona qalsa biz heç 25 ildir deputatımızı da tanımırıq. Ölmürük ki? Təki ölkəmizdə əmin-amanlıq olsun, Formula-1 yarışı keçirilsin. Vətən sağ olsun. İranlı molla Mələkutinin qızıl fonda düşmüş afyorizmindəki kimi: "Gəlin yığışaq, gedin davaya".

Qaldı bu ailə-məişət mövzusunun aktuallaşmasına, bunun səbəbi var. Təzəlikcə statistika açıqlandı, məlum oldu Azərbaycanda ailə münasibətləri, demoqrafik durum heç də yaxşı deyildir. Örnək üçün, 2014-cü ildə respublika üzrə nikah sayı 85747, boşanma sayı isə 12290 olub. 2015-ci ildə nikah sayı azalaraq 68985-ə düşüb, boşanma isə artaraq 12886 olub. Bunun içində dövlətə etibarsızlıq, dini nikahların artması da var.

Bayaq maşın yarışından bəhs elədim, dünən təhsil nazirimiz də ümidverici açıqlama vermişdir. Deyir xaricdə tələbə oxutdurmaq proqramına yenidən baxacağıq, daha hər adamı (oxu: çaşıb siyahıya saldığımız bir-iki yetimi) göndərməyəcəyik. Xaricdə təhsil üçün ancaq elmlər namizədi, akademik, doktor, Nobel mükafatı laureatı tipində şəxslər seçiləcəkdir. Bir də ümid edək icra hakimlərinin, nazir və deputatların istedadlı, imkansız balaları siyahıya düşəcək, xaricdə oxuya biləcəkdir.

Neft gəlirlərinin çox vaxtında da onsuz yapistlər xaricə normal sayda tələbə göndərmirdilər. Misal üçün, bir dəfə rəqəmləri müqayisəli hesablamışdılar, məlum olmuşdu ki, yapistlər 18 ildə xaricə göndərdiyi ümumi tələbə sayını Qazaxıstan cəmi 1 ildə göndərir. Rejimin əleyhinə çıxanların təqaüdünü kəsmək, yarı yolda buraxmaq isə adi hal idi. İndi isə belə çıxır ümumiyyətlə imtina eləmək istəyirlər. Əlbəttə, Azərbaycana xaricdə faydalı tələbə yetişdirmək, mütəxəssis hazırlamaq o qədər önəmli deyil. Düzgün yol odur pullarımız Xose Alonsonun Bakıda maşın sürməsinə həsr olunsun, Ledi Qaqanın Böyük Şorda piano çalmasına sərf edilsin.

**Bilmirəm bu yazını facebookda paylaşsam Aqiyə müəllimin münasibəti necə olar. Köhnə vaxtlarda ağbirçəklər sobanın qırağında uşaqları yığıb belə nağılları qəzetdən oxuyurdular, pişik də bir qıraqda xoruldayırdı, hələ kartofu duzlayıb dəmirə yapışdırsan, lap ləzzətli alınırdı... Eh keçən günlər... Aqiyə xanımın yerlisi demişkən, bəlkə qaytardılar.**

# "Ermənistan muzdluları, terrorçuları könüllü adı altında Azərbaycanın işğal olunmuş ərazilərinə toplamağa çalışır"

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov aprelin 15-də Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi cənab Herbert Salberin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələr, döyüş əməliyyatlarının aktivliyinin artması, hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə Z.Həsənov düşmən tərəfindən yaşayış məntəqələrimizin və mülki əhalinin atəşə məruz qalması faktlarını diqqətə çatdırıb.

Müdafiə naziri beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 ildən artıq bir vaxtda erməni işğalı altında olmasını, bunun nəticəsində bir milyondan çox soydaşımızın didərgin düşdüyünü, danışıqlar prosesinin nəticəsiz qalmasını da bir daha qonaqlara xatırladıb.



"Ermənistan Silahlı Qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxması ilə bağlı BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib. Ermənistan hakimiyyəti isə uzun illərdir beynəlxalq ictimaiyyətin haqlı tələbinə məhəl qoymur və mövcud "status-kvo"nu saxlamaqda davam edir. Bizə yaxşı məlumdur ki, işğalçılar Azərbaycan əsgərinin onlara vurduğu zərbədən sonra ağır vəziyyətə düşüblər. Ona görə də Ermənistan dünyanın müxtəlif qaynar nöqtələrindən muzdluları, terror təşkilatlarının üzvlərini könüllü adı altında Azərbaycanın işğal olunmuş ərazilərinə toplamağa çalışır. Rəsmi Yerevan artıq öz hərəkətlərində heç nəyə məhəl qoymadan açıq-aydın terror təşkilatları ilə əməkdaşlığa gedərək bunu dövlət siyasəti səviyyəsinə yüksəldib. Beynəlxalq təşkilatlardan, dünya ictimaiyyətindən bu məsələyə düzgün, obyektiv qiymət verilməsini tələb edirik. Əks halda Silahlı Qüvvələrimiz Ali Baş Komandanın söylədiyi kimi ərazilərimizin işğal altında saxlanılması faktı ilə heç vaxt barışmayacaq və torpaqlarımızın azad edilməsi kimi müqəddəs vəzifəni mütləq yerinə yetirəcəkdir", - deyə nazir bildirib.

Görüşdə iştirak edən baş prokurorun müavini - hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev Ermənistan hakimiyyətində təmsil olunan şəxslərin Azərbaycan torpaqlarının işğalında və törədilən ağır cinayətlərdə iştirakı, son döyüş əməliyyatları zamanı erməni hərbçilərin silahlı münaqişələr hüququnu pozaraq azərbaycanlı mülki əhaliyə qarşı zorakılığı, döyüş meydanında qalmış meyitlərə olan hörmətsizlik, o cümlədən digər fakt və dəlilləri qonaqların diqqətinə çatdırıb.

**Sonda qonaqları maraqlandıran bütün suallar ətraflı cavablandırılıb.**

# "Azərbaycan ordusu İrəvana qədər gedər, əgər..."

## Düşmən ölkədə anti-Rusiya meylləri artır; KTMT və Avrasiya İttifaqından çıxmaqla bağlı çağırışlar səslənir; **Razi Nurullayev:** "Sarkisyan Rusiyaya mesaj çatdırmaq istəyir ki..."

**Ermənistanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) və Avrasiya İttifaqından çıxmaqla bağlı çağırışlar səsləndirilir. Bu barədə sensasiyalı açıqlamalarla Ermənistanın "İrs" partiyasının sədr müavini Armen Martirosyan çıxış edib. O, qeyd edib ki, Ermənistan və Rusiya arasında onsuz da azad ticarət haqda müqavilə var.**

"Avrasiya İqtisadi İttifaqı Ermənistana nə üçün lazım idi - məlum deyil. Rusiya ilə 1995-ci ildən qüvvədə olan strateji müttəfiqliyimiz var. Bizə KTMT nə üçün lazım idi - bu da məlum deyil. Bu, Ermənistana heç nə vermir. Məntiqi olaraq, Ermənistan hər iki təşkilatı tərk etməlidir" - Martirosyan belə deyib.

Düşmən ölkədə bu cür fikirlər, xüsusilə, anti-Rusiya təbliğatı aprelin 2-5-i arası Azərbaycanla baş verən döyüşlərdən sonra daha da artıb. Belə fikirlərin də kökündə heç şübhəsiz ki, cəbhə xəttindəki acı məğlubiyyət dayanır. Rusiyanın nəzarəti altında olduğu heç kəsdə şübhə doğurmayan Avrasiya İttifaqından çıxmaqla bağlı Ermənistanda səslənən tələblər daha çox rezonans doğurub.

Bunun rus hakim dairələri tərəfindən birmənalı qarşılanmayacağı istisna olunmur. Gedən proseslər onu göstərir ki, Azərbaycanla baş verən 4 günlük savaşda məğlubiyyət ölkədə anti-Rusiya meyllərinin artmasına səbəb olub. Əksər ekspertlər son günlərdə Ermənistanda baş verənləri anti-Rusiya kampaniyasının tərkib hissəsi kimi qələmə verirlər.


Razi Nurullayev

**Beynəlxalq əlaqələr üzrə ekspert Razi Nurullayev** hesab edir ki, 4 günlük savaş Ermənistanın Rusiyadan gözləntilərinin təsəvvür etdiyimizdən daha çox olduğunu göstərdi: "4 günlük müharibədə Ermənistan gözləyirmiş ki, Rusiya bütün gücü ilə ona kömək etsin, Azərbaycana müttəfiq elan etmək üçün bəyanat versin, ölkəmizi hədələsin. Təbii ki, bu yolverilməz olardı - özü də Azərbaycanla müttəfiq olan, Minsk Qrupunun həmsədri olan bir ölkə tərəfindən. Rusiya Qarabağ münaqişəsinin tezliklə həllində maraqlı deyil. Çünki bu münaqişədən tərəflərə qarşı təzyiq kimi istifadə edir. Düşünmürəm ki, hansısa bəyanatların verilməsindən asılı olmayaraq, Ermənistanın siyasi elitası KTMT-dən çıxsın. Rusiya buna göz yuma bilməz. Ermənistanda bu cür bəyanatların verilməsinə, anti-Rusiya təbliğatının artmasına səbəb bir növ Rusiyaya qarşı təzyiq məqsədi daşıyır. Hazırda Ermənistandakı anti-Rusiya meylləri Serj Sarkisyanın da maraqlarına cavab verir. Bununla Sarkisyan Rusiyaya öz mesajını çatdırmaq istəyir ki, hakimiyyətdə olmasam, başqası məni əvəzləsə, anti-Rusiya meylləri sənin maraqlarının üstündən xətt çəkə bilər. Hazırkı situasiya Sarkisyanın həm şəxsi, həm də hakimiyyət maraqlarına tam cavab verir. Amma düşünürəm ki, Rusiyanın köməyi olmadan Ermənistan yaşaya bilməz. Ermənistanın arxasından Rusiya çəkilsə, Azərbaycan ordusu İrəvana qədər gedər. Düşmən ölkə bunu anlamırsa, demək burunlarından uzağı görmür".

**Ekspert Ermənistanda Avrasiya İttifaqından çıxmaqla bağlı səslənən tələblərə də münasibət bildirdi:** "Bunlar müəyyən kütlə, siyasi elita tərəfindən səsləndirilən tələblərdir. Amma ermənilərin əsas siyasi elitası bu fikirləri bölüşmür. Rusiya tərəfi bunu yaxşı bilir. Erməni hakimiyyəti tərəfindən bu cür tələblər səsləndirilsə, o zaman Rusiyanın qəti addımlar atacağı istisna olunmur - hakimiyyət dəyişikliyindən tutmuş, sanksiyalara qədər. Amma hazırda tələblər tələb şəklində də qalır. Zaman Azərbaycanın xeyrinə işləyir. Rusiya ilə Ermənistan arasında yaranan soyuq münasibətlər Azərbaycan-Rusiya münasibətlərinin yaxşılaşmasına səbəb olacaq. 4 günlük savaşa qədər belə hesab olunurdu ki, zaman ermənilərin xeyrinə işləyir. Amma artıq beynəlxalq təşkilatlar tərəfindən Ermənistana qarşı tələblər artıb, düşmən ölkənin dəstəkçiləri getdikcə azalmaqdadır. Azərbaycan-Türkiyə münasibətlərinin daha da istiləşməsi Qarabağ münaqişəsinin həlli prosesini sürətləndirəcək. Çünki söhbət artıq ilin sonuna qədər 5 rayonun qaytarılmasından gedir".

❑ Cavanşir ABBASLI

# Ermənistanın real itkiləri: 322 ölü, 500-dən çox yaralı...

**Ermənistan 2-5 aprel mini-müharibəsinin zərbəsindən hələ də özünə gələ, yasdan çıxa bilmir. Bunu İrəvanda Rusiya və hakim rejim əleyhinə davam edən etirazlar, prezident Serj Sərkisyanın qatı müxalifətçi Levon Ter-Petrosyanın ayağına getmək zorunda qalması ilə yanaşı, düşmənin 4 günlük müharibədəki itkiləri porsiya-porsiya açıqlamasından da görmək olar.**

**2-5 aprel günlərində hərbi əməliyyatların gedişində Ermənistan ordusu 322 nəfər əsgər və zabit itirib, 500-dən çox yaralı və 50-dən çox itkin var. Ermənistan rəhbərliyi itkilərin sayını gizlətmək üçün ölənlərin bir qismini "itkin düşmüş" elan edib, onların müəyyən hissəsi basdırılıb, digər hissəsi isə qeyri-döyüş itkisi kimi və "aprelin 5-dən sonra atışmalarda ölənlər" kimi qələmə verilməkdədir.**

Bu barədə Ermənistan mətbuatında məlumat getsə də, sonradan həmin məlumatlar silinib və yayımı qadağan edilib. Bəzi bilgilərə görə, fərarilik edərək İrana qaçan erməni əsgərləri də "itkin düşənlər"in siyahısına daxil edilib (azvision.az). "İtkin" kimi qələmə verilənlərin bir hissəsi heç kimə xəbərdarlıq edilmədən basdırılıb. Qalanları isə morqdadır və bir-bir çıxarılaraq cəmiyyətə təqdim edilir.

***

Qeyd edək ki, Ermənistan rəsmən hələ ki, 92 itkini etiraf edib. Yeri gəlmişkən, dünən təmas xəttində daha iki işğalçı hərbçisi ordumuz tərəfindən cəhənnəmə vasil edilib. Erməni tərəfinin təsdiqlədiyi kimi, aprelin 14-dən 15-ə gecə Ermənistan silahlı bölmələrinin atəşkəsi pozması nəticəsində təmas xəttində düşmənə Azərbaycan Ordusu tərəfindən açılan cavab zərbəsi ilə qarşı tərəf daha iki hərbçisini itirib.

Onlardan biri müddətdən artıq hərbi xidmət keçən, 1970-ci il təvəllüdlü hərbçisi Hamlet Xocayan Talış kəndi istiqamətində öldürülüb. Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin Xocavənd istiqamətində təxribatının qarşısı alınarkən isə doğum tarixi açıqlanmayan Armen Qriqoryan məhv edilib.



## Düşmən 4 günlük savaşın yasından çıxa bilmir - Sərkisyandan yasaq gəldi...

### Ölülərini porsiya-porsiya açıqlayan işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi ordumuzdan qorxub İran tərəfə qaçan fərarilərini də axtarır; ictimai qəzəbdən çəkinən Sərkisyan rejimi hərbçilərin öz qohumları ilə ünsiyyətini yasaqladı...

Bu arada Ermənistanın Müdafiə Nazirliyi silahlı qüvvələrin həbrçiləri ilə telefon, internet, yaxud sosial şəbəkələrdə xidmətə dair məsələləri müzakirə etməməyə çağırıb. Bu haqda ölkənin Müdafiə Nazirliyi video-müraciət yayıb. Hərbçilərin öz qohumları ilə canlı ünsiyyətin məhdudlaşdırılması onların təhlükəsizliyi ilə əlaqələndirilsə də, şübhə yox ki, motiv bam-başqadır: aydındır ki, iqtidardakı Sərkisyan-Ohanyan kriminal rejimi, "Qarabağ klanı" sadəcə, böyük canlı itkilərdən sonra artmaqda olan xalq qəzəbindən qorxduğu üçün belə addımlara gedir.

***

Panik ovqat isə indi ən çox Dağlıq Qarabağdakı separatçı rejimin rəhbərliyi və onun təəbələrində müşahidə olunmaqdadır. Bu da təbiidir: Azərbaycan xalqının qisası ən birinci onları haqlaya, ən birinci separatçı ünsürləri süpürüb ata bilər.

**Söz düşmüşkən, bir neçə gün öncə Ermənistanın Lragir müxalifyönlü portalının şərhçisi Xankəndində mətbuat konfransı keçirmiş separatçı qurumun başçısı Bako Saakyanın üzündəki xof və qorxu hissi barədə ayrıca yazı yazaraq, onu sərt tənqid eləmiş, haqqında əzici ifadələr işlətmişdi. "Axı sizə bütüm dünya baxır",- deyə müəllif bədbin və mağmın ovqatı ona irad bildirmişdi.**

Əslində isə Saakyanın xofu da, təlaşı da təbiidir. Bu xofu onda əlbəttə ki, Azərbaycan əsgəri, hərbi qüdrətimiz yaradıb. Rusun çiyinlərinin arxasında gizlənib özlərini illərdir "Arsax savaşı"nın qalibləri, məğlubedilməz komandir və "komandos"lar kimi qələmə verib qürrələn erməni siyasi-hərbi rəhbərlərinin durumu bu gün bax, belədir: ordumuzun kiçik və uğurlu bir həmləsi, blits-hərbi zəfəri kifayət elədi ki, misin kökə, səksəkəyə düşsünlər.

İndi onlar Azərbaycan əsgərinin öz torpaqlarını asanca geri ala biləcəyinə heç vaxt olmadığı qədər əmindirlər. Dünən Milli Məclisin iclasında spiker Oqtay Əsədovun dediyi kimi, "Biz Ermənistanla müharibə aparmamışıq, aparsaydıq, bir həftədə xeyli irəliləyərdik".

Doğrudan da belədir və ən önəmlisi, bunun indi hamıdan yaxşı işğalçı bilir. Spikerin sözlərinə görə, Azərbaycan ilk olaraq birtərəfli qaydada atəşkəs elan edib və hazırda sülh danışıqları gedir. "Ancaq biz bütün hallarda müharibəyə hazırıq. Buna dövlətimizin də, ordumuzun da gücü yetərlidir" - düşmənə xəbərdarlıq edib.

**Qalır bu xəbərdarlıqdan işğalçının vaxtında və düzgün nəticə çıxarması.**

❑ **Siyasət şöbəsi**

# Ermənilərin hücumunu sübut etmək nə üçün vacibdir?

## XİN düşməni ifşa etmək üçün hərəkətə keçib; politoloq fərqli düşünür

**4 günlük savaşdan 10 gün keçməsinə baxmayaraq, müharibənin fonunda müzakirələrə səbəb olan bəzi məsələlər hələ də gündəmdən düşməyib. Savaşın başladığı 2 aprel tarixindən bu günə qədər hücumun hansı tərəfdən edilməsi ilə bağlı Azərbaycan və erməni ictimaiyyəti arasında müxtəlif fikirlər var.**

Düşmən ölkənin ilk olaraq atəşkəsi pozması ilə bağlı Azərbaycanın ortaya kifayət qədər sübutlar qoymasına baxmayaraq, ermənilər həyasızcasına bunu inkar edirlər. Artıq ölkəmizin Xarici İşlər Nazirliyi düşmən ölkəni ifşa etmək üçün hərəkətə keçib.

**Qurumun mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** APA-ya açıqlamasında bildirib ki, Dağlıq Qarabağda son hərbi əməliyyatların bilavasitə Ermənistan tərəfindən başladıldığını sübut edən dəlillər Müdafiə Nazirliyi tərəfindən müfəssəl şəkildə təqdim olunub.

Hücumlara Ermənistanın başlamasına növbəti sübut kimi XİN rəsmisi onu qeyd edib ki, 2 aprel tarixindən hələ əvvəl qoşunların təmas xətti boyunca Ermənistan silahlı qüvvələrinin kütləvi konsentrasiyası aparılıb: "İşğal olunmuş ərazilərdəki Ermənistan qoşunlarına əlavə olaraq, Ermənistanın içərisindəki hərbi hissələrdən əlavə qoşun birləşmələri işğal olunmuş ərazilərə göndərilib. Qoşunların kütləvi konsentrasiyası, arxa təminat və rezerv hissələrin yaradılması və logistik planlaşdırma hərbi əməliyyatlara başlamağın ən bariz nümunəsidir. Ermənistanın onlarla ağır texnikası məhv edilib. Sual olunur: əgər plan hücum deyilsə, adi vaxtda ön xətdə bu qədər texnikanın nə işi var? Əminik ki, müşahidə peyk imkanları olan dövlətlər Ermənistan qoşunlarının konsentrasiyasını görməmiş deyillər".

**H.Hacıyev ermənilərin 4 günlük savaşda daha çox itki vermələrinə səbəb kimi onların hücum etdiyini də qeyd edib**: "Sadə məntiq budur ki, hücumda olan silahlı qüvvələr daha çox itki verir. Azərbaycan ordusu yüksək peşəkarlıq və yalnız birinci eşelondakı məhdud qüvvələrlə qarşı tərəfin həmləsinin qarşısını alıb və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün atəş məntəqələrini susdurub və bu təyinatla istifadə edilən yüksəklikləri işğaldan azad edib. Ermənistanın cəzasızlıq sindromu Azərbaycan ordusu tərəfindən sındırıldı və rəsmi Yerevan atəşkəsə vadar edildi. Ona görə də 2-5 aprel tarixlərində qoşunların təmas xəttində yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Bu hərbi avantüranın və Ermənistanın ordusunun itkilərinin məsuliyyətini Ermənistan xalqı indiki kriminal rejimdən tələb etməlidir".



Azərbaycan cəmiyyəti arasında ermənilərin hücumunu sübut etmək üçün hökumətin həyata keçirdiyi işlər müsbət qarşılanıb. Ekspertlər hesab edirlər ki, düşmən ölkənin atəşkəsi pozması sübut olunsa, bu, beynəlxalq aləmdə Qarabağ münaqişəsinin həllinə müsbət töhfələr verə bilər.

**Politoloq Elxan Şahinoğlu** 2 apreldə baş verən hadisələrin aydınlaşdırılmasına böyük ehtiyac olduğunu bildirdi: "Həmin gün Azərbaycanın dövlət başçısı ABŞ-da səfərdə idi. Əgər ölkəmiz hücum planı hazırlasa idi, həmin gün ölkə başçısı burada olardı. Demək, yenə də erməni təxribatı var. Ola bilsin ki, Azərbaycan hökuməti və ordu komandanlığı əgər ermənilər atəşkəsi yenə də pozsalar, onlara görmədikləri zərbəni vurmaqla bağlı qənaətə gəliblər. Belə bir cavab da məncə verildi. Şəxsi fikrim də var. Hesab edirəm ki, bu məsələnin üzərində çox dayanmağa da ehtiyac yoxdur. Ermənilərin hücumunu sübut etməyə bir o qədər də ehtiyac yoxdur. Dünyaya bəyan edirik ki, torplaqlarımızın azad edilməsi üçün gedən sülh danışıqları alınmasa, alternativ yollara əl atacağıq. Bu yolun da nə olduğu hamımıza bəllidir. Tam haqqımız çatır ki, işğalda olan ərazilərimizi istənilən yolla azad edək. Keçən il Ağdam səmasında vertolyot vurduq. Bizə heç nə deyilmədi. Hamı artıq bilir ki, işğalda olan torpaqlarımızı azad edəcəyik. 2 apreldə də ordumuz bir sıra yüksəkliklər ələ keçirdi. Yenə də bizə heç nə deyilmədi. Azərbaycanın işğal faktoru qaldığı sürəcdə hər zaman güc göstərmə ehtimalı yüksəkdir. Ermənilərin atəşkəsi pozmalarını dünyaya niyə sübut edirik ki? 22 ildir apardığımız danışıqlar nəticəsizdir. Təzyiqimizi artırdıqca, erməni cəmiyyətində də təlaş yaranır. Təzyiqlərimiz olmasa, 22 illik danışıqlar onu göstərir ki, ermənilər masa arxasında geriyə addım atmayacaqlar".

**Politoloq hücum edən tərəfi sübuta yetirməyin çətin olduğunu da qeyd etdi:** "Məntiqlə danışıb deyirik ki, prezident Amerikada idi, bunun üçün atəşkəsi poza bilməzdik. Amma bunu sübut etmək çətindir. Ona gərə bu məsələlərə enerji xərcləməyin yeri yoxdur. Tutaq ki, beynəlxalq aləmə sübut edək, ermənilərin atəşkəsi pozmasını. Bu nəyi dəyişir? Beynəlxalq təşkilatlar buna görə ermənilərə təzyiq etməzlər. 4 günlük savaşda qazandığımız uğurları diplomatiyamıza çevirməliyik. Bu savaşda bəzi uğurlar qazandıq. Qərb deputatları ermənilərin işğal etdiyi torpaqlardan çıxmalarını tələb etdilər. Eləcə də, İslam Konfransı Təşkilatının son iclasında önəmli qərarlar verildi. Bunu davam etdirməli, Ermənistana təzyiqləri artırmalıyıq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

**Türkiyə Silahlı Qüvvələrinin sabiq Baş Qərargah rəisi, ordu generalı İlkər Başbuğun Türkiyə və Azərbaycanın bir dövlət olması ilə bağlı fikirləri hər iki ölkədə geniş müzakirələr doğurub. Başbuğ Ərzurumda Atatürk Universitetindəki çıxışında bu barədə maraqlı bəyanatlar verib.**

# Dərin dövlətin əsas hədəfi - Türkiyə ilə Azərbaycanın birləşməsi

**Ən böyük arzusundan danışan İlkər Başbuğ deyib ki, böyük arzusu Türkiyə və Azərbaycanın eyni dövlət olmasıdır:** “Mənim ən böyük xəyalım Türkiyə və Azərbaycanın tək dövlət olmasıdır. Onsuz da "tək millət, iki dövlət" deyilmirmi? Bir-birimizlə tərcüməçi olmadan danışırıq. Amma mümkün deyil. İmkan verməzlər. Kaş ki, şərait uyğun olaydı".

Xatırladaq ki, Türkiyə və Azərbaycanın birləşməsi mövzusu zaman-zaman Azərbaycanda da gündəmə gətirilib. Bu iki türk cümhuriyyətinin konfederasiya şəklində birliyi Azərbaycanda bir neçə siyasətçi tərəfindən dilə gətirilib. Birliyə tərəfdar çıxanlarla yanaşı, ideyanı bəyənməyənlər də olub. Birlik ideyası Azərbaycan tərəfdən əsasən, mərhum prezident, milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy tərəfindən ortaya atılıb.

Türkiyə dərin dövlətinin və generalitetinin strateji planında bu birliyin yaradılması hər zaman olub. Amma İlkər bəyin dediyi kimi, buna dünya gücləri imkan verməzlər.

Qeyd edək ki, **Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının 26-cı rəisi, general İlkər Başbuğ** qatı millətçi olmağı ilə tanınır. Onun birliklə bağlı fikirləri Türkiyə və Azərbaycan cəmiyyətlərində rəğbətlə qarşılanıb. Əslində qalsa, indiyə qədər Azərbaycanın tanınmış simaları tərəfindən bu cür fikirlər zaman-zaman dilə gətirilib. Amma daha çox Azərbaycan-Türkiyə-Gürcüstandan ibarət Konfederasiya yaradılması ideyasını irəli sürənlər çoxluq təşkil ediblər. Hazırda da bu ideyanın tərəfdarları kifayət qədərdir.

İlk dəfə Konfederasiya təklifini irəli sürən **tanınmış hüquqşünas Vaqif Hacıbəyli** “Yeni Müsavat”a açıqlamasında bu gün də təklifinin üzərində qaldığını söylədi: “Düşünürəm ki, Azərbaycan, Türkiyə, Ukrayna və Gürcüstan birliyi yaradılmalıdır. Bu geopolitik ittifaq olmalıdır. Konfederasiya adı kod addır. Həm birləşmənin, həm də yaxınlığın kontorlarını göstərir. Hazırda dünyada konfederativ dövlət yoxdur. İsveçrə Konfederasiyası adlı dövlət var, amma federativ dövlətdir. Düşünürəm ki, Azərbaycan, Türkiyə və Gürcüstan Avropa Birliyinə daxil olan ölkələr səviyyəsində inteqrasiya etməlidirlər. İnteqrasiyanın qurulması ölkələrdə demokratiyanın inkişafına, sosial rifahın yüksəlməsinə kömək edə bilər. Amma təəssüflər olsun ki, belə bir birlik üçün zəmin olsa da, artıq o zəmin aradan götürülüb. Vaxtı ilə



**Vaqif Hacıbəyli:** “Maral Akşənər məndən sonra konfederativ birliyin yaradılması təklifini vermişdi”

Türkiyə demokratik dövlət idi, amma indi avtoritarizmə doğru yuvarlanır. Türkiyənin sabiq daxili işlər naziri Maral Akşənər məndən sonra Türkiyə ilə Azərbaycan arasında konfederativ birliyin yaradılması təklifini vermişdi. Azərbaycanda bir çox siyasətçilər konfederasiya təklifini əvvəlcə müdafiə etməsələr də, sonradan tərəfdar çıxdılar. İlk o təklifə dəstək verənlər Əbülfəz Elçibəy, Sabir Rüstəmxanlı və Bəxtiyar Vahabzadə oldular. 1999-cu ildə Konfederasiya təklifi çap olunandan sonra bu şəxslərin verdikləri dəstəyi minnətdarlıqla xatırlayıram”.



**Sabir Rüstəmxanlı:** “Hər iki xalqın bir dövlətdə birləşməsi tarixin ədaləti olardı”

**Konfederasiya ideyasının müəllifi təklifinin birmənalı qarşılanmamasına da münasibət bildirdi:** “Təəssüflər olsun ki, bu təklifimi Azərbaycanın bəzi siyasi qüvvələri müstəqilliyimizin itirilə biləcəyi kimi dəyərləndirdilər. O vaxt Müsavat Partiyası da bu cür mövqe tutdu. Buna çox təəssüflənirəm. Vurğun Əyyub tərəfindən açıqlanan rəsmi mövqedə Müsavatın Azərbaycanın müstəqilliyinin tərəfdarı olduğu göstərildi. Əlbəttə, bu, düzgün yanaşma deyildi. Hesab edirəm ki, Azərbaycan gələcək inkişafını bu ölkələrlə geopolitik ittifaqın qurulması üzərində qurmalıdır”.

Birlik ideyasının tərəfdarlarından olan **Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı** bu fikirlərin yeni olmadığını bildirdi: “Türk hərbiçilərinə, generallarına hörmətimiz var. Amma bu fikir yeni deyil. 25 il öncə bu fikirləri səsləndirmişik. Türkiyə və Azərbaycanın konfederativ dövlətdə birləşməsinin, yaxud Avropa Birliyinə bənzər birlik yaratmalarının hər iki dövlətin xeyrinə ola biləcəyini bildirmişik. "Biz bir millət, iki dövlətik" fikirləri çox gözəldir. Amma bir millət, iki dövlət olmaq məsələnin həlli deyil. Biz bir millət, bir dövlət olmalıyıq. Bir xalqın bir neçə dövlətinin olduğu faktları var. Almanları, ingilisləri misal göstərə bilərik. Amma bu xalqların heç birinin arasında bizim Türkiyə ilə əlaqələrimiz qədər yaxınlıq yoxdur. Eyni boy, soydan gələn xalqıq. Siyasi iradə olsa, dünya imkan versə, hər iki xalqın bir dövlətdə birləşməsi tarixin ədaləti olardı. Buna da cəhdlər etmək lazımdır. Tarixən bu cür düşüncələr olub. Bu birliyə doğru müəyyən addımlar zaman-zaman atılıb. Təəssüf ki, qonşularımızın apardıqları açıq və gizli riyakar siyasət buna imkan verməyib. İndi də buna qarşı çox ciddi manelər var. Hətta Türkiyə ilə yaxınlaşmağımıza belə mane olan qüvvələr var. Azərbaycanın özündə də türklüyümüzə qarşı çıxan qüvvələr mövcuddur. Türkiyənin özündə də eyni situasiya var. Türk düşmənçiliyi təəssüf ki, hələ də yaşayır. Bu, tarixdən gələn nifrətdir. Bütün bunlar hər iki dövlətin birləşməsinə ciddi mane olur. Amma zaman ona doğru irəliləyir. Müəyyən birliklər yaradılmalı və bu istiqamətdə işlər görülməlidir".

❑ **Cavanşir ABBASLI**

# “Bütün şəhid ailələrinə yardım ediləcək”

**Aprel ayının 2-dən 5-dək cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan pilotlarımız-mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə, baş leytenant Bəkir İsmayılovun ailələrinə mənzil verilib. Aprelin 15-də şəhid pilotlarımızın ailə üzvləri mənzillərlə təmin olunub.**

Qeyd edək ki, həmin evlər prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələrinə təqdim edilib.

Məlum olduğu kimi, cəbhə bölgəsində davam edən bir neçə günlük savaşda Azərbaycan ordusu bir neçə şəhid verib. Əvvəlcə qeyd edək ki, döyüşlər zamanı Azərbaycan ordusu həm əsgər, həm də yüksək rütbəli zabitlərini də şəhid verib. Həmin şəhidlərin ailələrinə də yardım edilib-edilməyəcəyi müzakirə mövzusudur. Sosial şəbəkələrdə də geniş müzakirə mövzusu olan bu məsələ ilə bağlı rəsmi məlumat öyrənməyə çalışdıq.



**Vaqif Dərgahlı:** “Bu məsələ gündəmdədir”

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri, polkovnik Vaqif Dərgahlı** musavat.com-a açıqlamasında bildirdi ki, bütün şəhid ailələrinə yardım edilməsi məsələsi gündəmdədir: “Şəhid ailələrinə yardım dövlət tərəfindən edilir. Digər şəhid ailələrinə də yardım ediləcək”.



**Elman Babayev:** “Onlar sosial müavinət və prezident təqaüdləri ilə təmin olunacaqlar”

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də məsələyə münasibət bildirildi.

**Nazirliyin mətbuat xidmətinin rəhbəri Elman Babayev** musavat.com-un sorğusuna cavab olaraq bildirdi ki, həlak olmuş hərbi qulluqçuya görə onun ailəsinə sığorta ödənişi (qanunvericilikdə buna görə şəhid ailəsi üçün “kompensasiya” anlayışı əksini tapmayıb) həmin hərbi qulluqçunun sığortaçısı olan təşkilat tərəfindən həyata keçirilir.

**Nazirlik rəsmisi bildirdi ki, hərbi qulluqçuların ailəsi şəhid ailəsi statusu aldıqdan sonra onlara sosial yardım edilir:** “Hərbi qulluqçuların dövlət icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə və bu Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 25 iyul 1997-ci il tarixli 620 nömrəli Fərmanına əsasən hərbi qulluqçuların sığortaçısı Dövlət Sığorta Kommersiya Şirkətidir. Hərbi qulluqçularla bağlı sığorta hadisəsi baş verdikdə sığorta ödənişi həmin qurum tərəfindən təmin olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən isə şəhid ailəsi statusu olan ailələr qanunvericilikdə nəzərdə tutulan qaydada sosial təminat növləri ilə təmin edilirlər. 2016-cı il il aprel ayının əvvəllərində Ermənistan tərəfindən ölkəmizə qarşı həyata keçirilən silahlı təxribatın qarşısının alınması zamanı həlak olmuş hərbi qulluqçuların şəhid statusu, ailələrinə şəhid ailəsi statusu rəsmi qaydada müəyyən olunduqdan sonra onlar da nazirlik tərəfindən qanunvericilikdə nəzərdə tutulan qaydada sosial müavinət və Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə təmin olunacaqlar. Şəhid statusu və şəhid ailəsi statusu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”na əsasən, gizir və zabit heyəti üçün onların işləmiş olduqları yuxarı dövlət orqanının kadrlar idarəsinin, digər hərbi qulluqçularüçün isə hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq rayon (şəhər) şöbəsinin arayışları əsasında təsdiq edilir. Qeyd olunan arayışlarla şəhid ailəsi statusu təsdiq edilmiş ailələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeydiyyata götürülərək, onlara Azərbaycan Respublikası Prezidentinin şəhid ailələri üçün nəzərdə tutulan 220 manat məbləğində aylıq təqaüdü, həmçinin onların 16yaşadək *(ümumtəhsil müəssisələrində əyani təhsil alanlar 18 yaşadək)* övladlarına, əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət ödənilir. Əmək pensiyası təyin edilmiş şəhid ailəsi üzvünün hər birinə yaşa görə əmək pensiyasının baza hissəsinin 85 faizi məbləğində əlavə hesablanır".

**E.Babayevin sözlərinə görə, əlavə olaraq şəhid ailələri müvafiq rayon (şəhər) İcra Hakimiyyətlərində mənzil növbəsinə qeydiyyata alındıqları halda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəlilik qaydasında onların mənzillə təminatı da həyata keçirilir:** “Bu vaxta qədər 5336 nəfər əlil və şəhid ailəsi mənzillə təmin olunub ki, onlardan 4845 nəfərini də məhz Qarabağ müharibəsi əlilləri və şəhid ailələri təşkil edib. *(Digərləri isə Böyük Vətən müharibəsi əlilləri, Çernobıl AES əliləri və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlar, gözdən əlillər olub)*

Şəhid ailələrinin ölkəmizin ali təhsil müəssisələrində bakalavriat və magistratura *(tibb təhsilində əsas və rezidentura)* təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində təhsil haqqı da Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş təhsil xərcləri miqdarında dövlət hesabına ödənilir.

Azərbaycan qanunvericiliyində şəhid ailələri üçün digər bir sıra güzəşt və imtiyazlar da əksini tapıb".

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Rusiya Qarabağ "kartları"nı yenə gizli saxlayır

## Putinin Moskvadan verdiyi növbətçi bəyanat nəyə hesablanıb? Kreml başçısının konfliktlə bağlı söylədikləri Rusiyanın fəallaşan diplomatiyasına uyğun gəlmir; İsrailin nüfuzu siyasətçisindən Azərbaycana dəstək: "Təxribatı Ermənistan törədib..."

**Dağlıq Qarabağ konflikti zonasında sonuncu, qısamüddətli müharibənin ardınca Ermənistanda baş qaldıran etirazların bir hədəfi də sözsüz ki, dünyanın işğalçı ölkədən gözlədiyi labüd kompromislərə getməkdən qaçmaqdır. Necə deyərlər, "qara məni basmamış mən qaranı basım" prinsipini rəhbər tutan düşmən ölkənin siyasi isteblişmenti bununla beynəlxalq birliyin diqqətini təcavüz faktından, BMT Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Birliyinin, İslam Əməkdaşlıq Təşkilatının ədalətli qərar və qətnamələrindən yayındıracağına ümid edir.**

Qarabağ münaqişəsi ötən həftəsonu İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Türkiyədə keçirilən XIII sessiyasının gündəliyində də yer aldı. Təşkilat konfliktlə bağlı bir daha öz prinsipial, beynəlxalq hüquqa söykənən ədalətli mövqeyini ortaya qoydu, Ermənistandan işğal elədiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməyi tələb elədi. Bundan əlavə, qurum ilk dəfə olaraq problemin həllini sürətləndirmək məqsədilə üzv dövlətlərin xarici işlər nazirləri səviyyəsində İşçi Qrupu da təsis elədi.

Lakin əfsuslar olsun ki, bu kimi qərar və qətnamələr kağız üzərində qalmaqda davam edir. Öz əsas havadarlarına və gizli-aşiq himayədarlarına, bir qədər də xristian təəssübkeşliyinə güvənən, habelə öz üzərində hər hansı beynəlxalq sanksiyalar hiss etməyən təcavüzkarın azğınlığı barədə Azərbaycan prezidenti İlham Əliyev İƏT toplantısında da danışıb.

"Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Həmin qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Mən Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəlində törədilib. Azərbaycan ordusu Ermənistanın təxribatının qarşısını alıb. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, xarici işlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın. Bu qərara görə təşəkkür edirəm" - deyib ölkə başçısı.

***

Ermənistanda isə işğal altındakı Azərbaycan ərazilərinin heç olmasa, bir qismini boşaldıb, yeni və daha dağıdıcı müharibə riskini azaltmaqdan danışmaq əvəzinə, aprelin 2-dək olan təmas xəttinin bərpasının vacibliyindən dəm vurmağa başlayıblar. Halbuki, istər yeni, istərsə də köhnə təmas xətti Azərbaycan ərazilərlidir və onların ermənilərə coğrafi olaraq heç bir aidiyyəti yoxdur.

Bütün bunlar, üstəgəl, Ermənistanda Rusiya əleyhinə özünü göstərən, müəyyən mənada Moskvanın da maraqlı olduğu deyilən isterika o anlama gəlir ki, təcavüzkar 4 günlük müharibədən özü üçün lazımı dərs götürməyib. Belə görünür, Rusiya da Ermənistandakı narazılıqdan həll prosesini uzatmaq üçün istifadə eləməyə çalışır. Hər halda Kremlin öz forpostundan imtina edəcəyi ağlabatan deyil. Öz növbəsində Rusiya da Ermənistana sonuncunun əsas varlıq qarantı kimi lazımdır - İrəvan Moskvadan Azərbaycana silah satışına görə narazı olsa da.

Ermənistan əlbəttə ki, Qarabağ məsələsi öz yekun həllini tapmadan Rusiyadan imtina etməyəcək, Kremlin orbitindən uzağa getməyəcək. Çünki belə bir imtina - elə Qarabağdan imtina demək olardı. Rusiya isə belə görünür bu mərhələdə də Qarabağ məsələsində əsas oyunçu olduğunu Qərbə nümayiş etdirməklə işini bitmiş hesab eləmək istəyir. Hərçənd, prezident Putinin danışmanı bəyan edir ki, ilin sonunadək 5 rayon qaytarıla bilər.

Bunun bir ehtimal, yoxsa konkret informasiyadan qaynaqlanan fikir, yazida da Azərbaycanı sakitləşdirmək üçün təbliğati gediş olduğunu yəqin ki, önümüzdəki həftələrdə biləcəyik. Lakin Moskvada srağagün keçirdiyi mətbuat konfransında Putinin Qarabağ mövzusunda söylədikləri nikbinlik üçün əsas yaratmır.

Məsələ ondadır ki, Kreml başçısı Rusiyanın ənənəvi mövqeyindən fərqli heç nə söyləməyib, növbətçi bir açıqlama verib və yenə problemin həllinin "Azərbaycan və Ermənistanın iradəsindən asılı olduğunu" söyləyib. İşğal faktından, bir neçə rayonun azad olunması vacibliyindən isə həmişəki kimi, yenə danışmayıb, Azərbaycanla Ermənistanı növbəti dəfə tərəzinin eyni gözünə qoyub. Bu da son zamanlar Rusiyanın fəallaşan *(hər halda kənardan belə təəssürat yaranır)* Qarabağ diplomatiyası ilə əslində uzlaşmır.

"Qarabağ - çox incə məsələdir. Biz bu məsələnin həllində maraqlıyıq. Rusiya Azərbaycan və Ermənistanla işləməkdə maraqlıdır" - Rusiya prezidenti bildirib. Onun sözlərinə görə, bu ayın əvvəllərində




kəskinləşən çoxdankı münaqişəyə yanaşmada hakim prinsipindən çıxış etmək lazımdır: "Xətər yetirmə". Putinin fikrincə, bu məsələdə hər iki tərəfdən kompromislər tapılmalıdır. "Lakin münaqişənin həllin sön töhfəni Azərbaycan və Ermənistan xalqları verməlidir"- Putin qeyd edib.

**Rusiya prezidenti daha sonra Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyəti "olduqca həssas mövzu" adlandırıb.** Onun qənaətincə, bir neçə il öncəyədək ona elə gəlirmiş ki, münaqişənin həlli üçün lazımi kompromislərə yaxınlaşıblar. "Ancaq məlum oldu ki, belə deyilmiş"- Kreml başçısı əlavə edib.

***

**Yaranmış qeyri-müəyyən vəziyyətdə, Rusiyanın yenə "kartları" gizli saxladığı vaxtda Azərbaycanın öz hərbi qüdrətini artırmaqla yanaşı, beynəlxalq səviyyədə dost-müttəfiqlərinin sayını çoxaltması mühüm önəm daşıyır.** O sırada Bakının isti münasibətlərdə olduğu, hərbi-texnoloji əlaqələri inkişaf etməkdə olan İsrail dövləti və dünya yəhudi lobbisi ilə münasibətləri məxsusi dəyər daşıyır.

"Mən bu regionda hadisələrin inkişafını diqqətlə izləyirəm və əminəm ki, bu dəfə hər şey qarşı tərəfin təxribatından başlayıb. Münaqişənin növbəti dolağı prezident Əliyev ABŞ-da olanda, Barak Obama ilə görüşəndə açılıb. Dövlət başçısı xaricdə olanda belə qərarlar qəbul olunmur". Bu sözləri İsrailin sabiq xarici işlər naziri, "Bizim evimiz İsraildir" Partiyasının lideri Aviqdor Liberman son 4 günlük müharibəni İsrail nəşrinə şərh edərkən söyləyib.

Onun sözlərinə görə, Azərbaycanda indi heç də sadə iqtisadi durum mövcud deyil və neft-qazın qiymətinin düşməsi ilə bağlı manat iki dəfə dəyər itirib. "Yəni bu, Azərbaycandan ötrü münaqişə baxımından ən qeyri-məqbul dönəmdir. Bundan əlavə, Rusiya və ABŞ nümayəndələrinin iştirak elədiyi danışıqlarda bakılılar özlərini kifayət qədər ölçülü-biçili və məsuliyyətli apardılar" - siyasətçi qeyd edib.

Jurnalistin "Ehtiyatlanmırsızmı ki, münaqişə tərəflərindən birini dəstəkləməyiniz İsraildə bəzi seçici səslərini itirməyinizə gətirə bilər, Ukrayna ilə Rusiya arasında konfliktdə irsailli siyasilər, o cümlədən siz bitərəf qalmağa çalışmısınız" sualına Liberman belı cavab verib: "Rusiya ilə Ukrayna arasında konfliktdə biz mövqe bildirə bilmərik, çünki orada hər şey elə də sadə və aydın deyil. Qarabağ məsələsində isə hər şey tamamilə aydındır. Azərbaycanın münaqişəni qızışdırmaq üçün səbəbi olmayıb".

**Qeyd edək ki, 57 yaşlı Liberman ölkəsində Azərbaycanın lobbiçilərindən biri kimi tanınır. Siyasətçi təkcə Dağlıq Qarabağ deyil, saxta erməni "soyqırımı" məsələsində də bir neçə dəfə ədalətli, işğalçı Ermənistanı qəzəbləndirən açıqlamalar verib. Aviqdor Liberman Kişinyovda doğulub.**

## 7 ermənini məhv edən zabitimiz: "Yenidən döyüşməyə hazıram"



**Azərbaycan ordusunun zabiti Asif Rəsulov ermənilərə qarşı qəhrəmancasına vuruşub. O, Talış yüksəkliyini qoruyarkən aprelin 6-da ağır yaralanıb. Hazırda hospitalların birində müalicə alır.**

Bu barədə "Report"a A.Rəsulovun yaxın qohumu Bəxtiyar Nuriyev məlumat verib. O bildirib ki, zabit həmin yüksəkliyi qorumaq üçün könüllü gedib: "Talış yüksəkliyi ermənilərdən alındıqdan sonra ermənilər yenidən həmin mövqeni tutmaq üçün cəhd ediblər. Bu zaman döyüş başlayıb. Asifgil 4 nəfər olublar, onlardan 3-ü şəhid olub. Asif özü isə ağır yaralanıb, 2 snayper, 3 avtomat güllləsi dəyib, qəlpə yarası alıb. Onlar döyüşdə xeyli erməni əsgərini məhv ediblər. Təkcə Asif özü 7 ermənini zərərsizləşdirib. Zabitimizin sağ qalması, sadəcə, möcüzədir. Hazırda o, hospitalların birində müalicə alır, vəziyyəti yaxşıdır".

Asif Rəsulovun Azərbaycan ordusunda 22 il qüsursuz xidmət etdiyini deyən B.Nuriyev qeyd edib ki, o, buna görə mükafatlandırılıb, təşəkkürnamələr alıb: "O yenə də deyir ki, Qarabağda müharibə başlasa, gedər. Hazırda onun nədənsə narazılığı yoxdur, yüksək səviyyədə diqqət və qayğı göstərilir".

**Asif Rəsulov 1977-ci ildə Ağstafada doğulub. Ailəlidir, 2 övladı var.**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

**Cəbhədə 2-5 aprel tarixlərində baş verən müharibə zamanı əksər vətəndaşlarımız ordumuzun yanında olduğunu, torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün əlindən gələn hər bir şeyi etməyə hazır olmalarını nümayiş etdirdilər. Qələm əhli, bir çox ziyalılarımız informasiya savaşında, adi vətəndaşların böyük hissəsi sosial şəbəkələr vasitəsi ilə dövlətimizə dəstək olub, Qarabağ həqiqətlərini dünyaya yaydılar.**

# Tanınmış azərbaycanlılar Qarabağ məsələsində niyə susdular...

## Abbas Abbasov, Söyün Sadıqov, "AST Telman", Rüstəm İbrahimbəyovun 4 günlük müharibədə səsləri çıxmadı

Bu ərəfədə xaricdə yaşayan bəzi tanınmış həmyerlilərimiz, ziyalılarmız da bu informasiya savaşında öz sözünü deyərək, düşmənin əsassız təxribatlarına qarşı öz fakta söykənən arqumentləri ilə cavab verdilər. Onlardan professor İlham Rəhimovun, Rusiya İslam Komitəsinin sədri Heydər Camalın adlarını qeyd edə bilərik. Lakin müxtəlif məqamlarda Azərbaycanla bağlı fikir söyləyən, dövlətimizə lazım gəldikdə hər cür dəstəyi verməyə hazır olduqlarını bildirən bir çox xaricdə yaşayan həmyerlilərimiz bu məsələdə susdular. Onlardan Abbas Abbasovun, Söyün Sadıqovun, AST Telmanın, Rüstəm İbrahimbəyovun və digərlərinin adlarını qeyd edə bilərik. Bu adamların susmasının səbəbi nədir?

Məsələ ilə bağlı musavat.com-a danışan **politoloq Qabil Hüseynli** bildirib ki, vətənini sevən, ərazi bütövlüyümüzün təmin olunmasını istəyən şəxs belə məqamda fikir bildirməli idi: "Belə bir məqamda vətən övladı kimi öz mövqeyini bildirməyən insanı deməli, bu vətənlə bağlayan heç bir tel yoxdur. Hazırda elə bir məqamdır ki, Azərbaycan ordusu güclənib və ermənini xeyli üstələyib. Bu cür şəraitdə ziyalıların, Azərbaycanın Rusiyada yaşayan adamlarının, bütövlükdə ictimai rəyə təsir imkanları olan şəxslərin danışması, həm Azərbaycan xalqına ruh yüksəlişi gətirərdi, həm də onların özlərinin mövqeyi bəlli olardı. Biz də bilərdik ki, bu adam kimdir və kimə qulluq edirlər. Mən susanları vətənpərvər hesab etmirəm. Hətta bəzilərini azərbaycanlı kimi vətənimizin çörəyini yeyib, sonra bu çörəyin haqqını itirən hesab edirəm. Daha sərt sözlər söyləmək istəmirəm. Çünki millətin parçalanmasının tərəfdarı deyiləm. Ancaq hər halda ziyalı adamdan vətən, torpaq bayraq naminə fəal həyat mövqeyi tələb edirəm".

**Q.Hüseynli bildirib ki, xüsusilə belə bir məqamda "AzərRos" un üzvləri aktiv olmalı idi:** "Onlar ən azından bəyanat verə, Rusiyanın kütləvi informasiya vasitələrinə çıxa bilərdilər. Bundan başqa bizim xalqımızın ünvanına təhqiramiz ifadələr işlədin ermənilərin cavabını verə bilərdilər. Böyük təşkilatdırlar. Erməni səfirliyinin qarşısında mitinq də edə bilərdilər. İçərilərində çox sayda intellektual



Abbas Abbasov



Telman İsmayılov



Söyün Sadıqov

şəxslər var. Həmin şəxslər Rusiya qəzetlərinə məqalə yazıb, televiziyalarında çıxışlar edə bilərdilər. Azərbaycanlılar Rusiyada ermənilərdən 3 dəfə çoxdurlar. Ancaq KİV-də ermənilərin hədsiz fəallığının şahidi olduq. Azərbaycandan yalnız bir nəfər "İhlas" xəbər agentliyinin müxbiri Fuad Abbasov var idi. Onu da fəallığına görə geri çağırdılar. "AzərRos"un sədri başqa vaxtlarda sinəsinə döyüb Azərbaycanı sevməkdən, vətənpərvərlikdən danışır. Belə bir gündə susan adam necə vətənpərvər ola bilər. Millətimizin öz vətəndaşına ehtiyac durduğu gün idi. Abbas Abbasova gəlincə isə ondan heç nə gözləməyə dəyməz. Onun kimə qulluq etməsini hamı bilir".

Məsələ ilə bağlı "Yeni Müsavat"a **Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** da danışıb. O bildirib ki, baş verən hadisələrə müxtəlif cür qiymət vermək olar: "Ancaq bir fakt ortadadır ki, ordumuz öz gücünü düşmənə göstərdi. Bundan sonra da beynəlxalq təşkilatların, böyük dövlətlərin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqelərini dəyişdikləri aydın şəkildə hiss olunur. Hələ ki qeyri-rəsmi olaraq Rusiyadan da məlumatlar gəlir ki, artıq münaqişə ilə bağlı real danışıqlar gedəcək. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi məsələsi gündəmdədir. Bu, Azərbaycan üçün müsbət bir hadisədir. Belə bir məqamda bu hadisəyə münasibət bildirməmək, yaxud da mənfi rəy vermək hesab edirəm ki, Azərbaycanı sevən üçün qəbulolunmazdır. İndiki məqamda hər kəsin siması ortaya çıxdı. Kimlərsə Rusiyanın marağını düşünüb susurlar, kimlərsə də Qərbdə hansısa dairələrin marağına görə danışmırlar. Düşünürəm ki, bu cür adamlar Azərbaycanın milli maraqlarından çox uzaq olan şəxslərdir. Bu cür münasibətlər bir müddət əvvəl Türkiyə tərəfindən Rusiyanın təyyarəsi vurulan zaman da ortaya çıxmışdı. Qəribə bir halla rastlaşdıq ki, bu məsələdə tam açıq şəkildə Rusiyanı müdafiə edənlər də oldu. Kənardan baxanda görünür ki, Azərbaycanın milli maraqlarına yad olan insanlar Qarabağ məsələsində də ya susdular, ya da mənfi münasibət bildirdilər".

**Əli RAİS**

# Əkrəm Əylislinin ölkədən buraxılmamasının şok sirri - "Nobel alıb, dönməyəcəkdi..."

## Yazdığı "Daş yuxular" romanı ilə Azərbaycana qarşı böyük təxribata yol vermiş yazıçı Qərbin diqqətini çəkib; ikinci Orxan Pamuk nümunəsi yetişdirilir...

**Azərbaycanın tanınmış yazıçısı Əkrəm Əylislinin hava limanından buraxılmaması və sonradan ona qarşı cinayət işinin açılması ilə bağlı yeni təfərrüatlar məlum olub. Xəbər verdiyimiz kimi, yazıçı Əkrəm Əylisli martın 30-da səhər saatlarında Heydər Əliyev adına Beynəlxalq Hava Limanında saxlanılıb. İlkin məlumatda bildirilirdi ki, yazıçı Venesiyada keçirilən ədəbiyyat festivalına getmək istəyirmiş. Yazıçı saat 5:19-da 613 saylı reyslə Frankfurta uçmalı imiş.**

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə** isə mediaya açıqlamasında Əkrəm Əylislinin saxlanması faktını təsdiq etmişdi. O demişdi ki, Ə.Əylisli buraxılış məntəqəsindən keçərkən əməkdaşlarla münaqişə yaratdığı üçün saxlanılıb. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

Bir gün sonra isə yazıçıya qarşı xuliqanlığa *(Cinayət Məcəlləsinin 221.1-ci maddəsi)* görə cinayət işi açıldı.

Məlum olub ki, Ə.Əylisli Venesiyada 30 mart - 2 aprel tarixlərində keçirilən "Incroci Di Civilta" beynəlxalq ədəbiyyat festivalında iştirak etmək üçün ölkədən çıxmaq istəyib. Hətta İtaliyanın "Corriere della Sera" qəzeti Əkrəm Əylislinin festivalda edəcəyi çıxışı dərc edibmiş.

78 yaşlı yazıçının ölkədən çıxmasına imkan verməyən hakimiyyət orqanlarının isə öz motivləri olub. Musavat.com-a çatan məlumata



görə iqtidar bu addımı bir sıra beynəlxalq güclərin yazıçıdan və onun ermənilərin xeyrinə yazdığı "Daş yuxular" romanından Azərbaycana qarşı istifadə etmək planını önləmək üçün atıb. Bu məlumatda iddia olunur ki, beynəlxalq güclər Əkrəm Əylisli və onun ermənilərin xeyrinə, birmənalı şəkildə Azərbaycana qarşı yazdığı "Daş yuxular" romanından ölkəmizə qarşı istifadə etmək məqsədi ilə plan hazırlayıb. Yazıçı Azərbaycana bir daha qayıtmayacaqdı və onu bütün dünyanı dolaşdıraraq, Azərbaycanın əleyhinə, ermənilərin xeyrinə danışdıracaq, sənədli filmlər, video-müsahibələr hazırlayacaqdılar. İşin sonunda Əkrəm Əylislinin erməni mənafeli "Daş yuxular" romanının Nobel mükafatına təqdimatı da var.

Mötəbər sayılan mənbəmiz deyir ki, bu əsər onsuz da Nobelə təqdim olunacaq. Və böyük ehtimalla, məhz ermənilərin xeyrinə yazılan, Azərbaycana xəyanətin nümunəsi olan bu əsərə Nobel mükafatı da veriləcək. Lakin Azərbaycan hakimiyyəti yazıçını ölkədən buraxmamaqla, bu prosesin bəri başdan ölkəmiz əleyhinə, ermənilərinsə lehinə böyük kampaniyaya dönüşməsinin qarşısını alıb.

Məlumatlı mənbə bildirir ki, Ə.Əylislinin timsalında ikinci Orxan Pamuk nümunəsi yaratmaq planı olub. Xatırladaq ki, Türkiyə yazıçısı Orxan Pamuk 2005-ci ilin fevralında İsveçrədə dərc olunan "Das Maqazin" jurnalına müsahibədə Türkiyəni nəzərdə tutaraq dediyi "Bu torpaqlarda 30 min kürd və bir milyon erməni öldürüldü. Amma məndən başqa kimsə bu haqda danışmağa cəsarət etmir" - sözləri yazıçının vətənində əsl fırtına yaratmışdı. Mətbuatın fəal iştirakı ilə Orxan Pamuk Türkiyə Cəza Qanununun 301-ci maddəsi ilə "türklüyə həqarət" ittihamı ilə məhkəməyə verilmişdi. Günahkar sayılacağı təqdirdə yazıçını 6 aydan üç ilə qədər həbs cəzası gözləyirdi. Lakin Türkiyə Ədliyyə Nazirliyinin müvafiq razılığı olmadığından məhkəmə yarımçıq buraxıldı.

Orxan Pamuk 2006-cı ilin Nobel seçimində suriyalı şair Əli Əhmən Səidi gizli səsvermədə üstələyərək qalib olmuşdu. Pamuk 2006-cı il dekabrın 7-də İsveç Akademiyasında türk dilində "Babamın bavulu" adlı Nobel mühazirəsi oxumuş, dekabrın 10-da isə İsveç kralı Qustavın əlindən Nobel mükafatının qızıl medalını və diplomunu almışdı.

Onun bu nüfuzlu mükafatı qazanması Türkiyədə birmənalı qarşılanmamışdı. Əksəriyyət bu fikirdə idi ki, Nobel Qərb qarşısındakı xidmətlərinə görə Pamuka verilmiş ödəncdir.

**Göründüyü kimi, Türkiyəyə qarşı açıq ədəbi-ideoloji təxribat etmiş O.Pamuk Qərbin diqqətində və himayəsindədir. Ə.Əylisli də "Daş yuxular" romanını yazmaqla O.Pamuk qədər öz ölkəsinə, xalqına qarşı təxribat törədib, hətta xəyanətə bərabər addım atıb. Əylisyi də eyni motivlərlə Nobel mükafatı veriləcəyinə şübhə yoxdur...**

**Musavat.com**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016



# Evakuatordan aşan, sürüyə-sürüyə aparılan maşınlar...

## Sürücülərin kabusu - cərimə meydançasına düşməmək üçün nə etməli və ya evakuatorun verdiyi ziyanı kim ödəyəcək?

**Son illər Bakıdakı sürücülərin kabusu heç şübhəsiz ki, evakuatorlardır. Yəqin ki, bu günə qədər çoxlu sayda belə videolarla qarşılaşmısız - evakuator maşını aparır, sürücüsü arxasınca qaçır, taksi ilə evakatoru təqib edir, dayandırmasını istəyir və sair. Amma bütün hallarda qanunvericilikdə bütün bu məqamlar öz əksini tapıb. Hansı hallarda evakuator maşını apara bilər? Sürücü yaxınlaşdığı halda cəriməni ödəməklə proses yekunlaşa bilərmi?**

Əslində isə maşınların evakuatorla cərimə meydançasına aparılması sürücülərin yol hərəkəti qaydalarının tələblərinin əksinə dayanma və durma qaydalarının pozulması halında baş verir. İnzibati Xətalar Məcəlləsinin 407-ci və "Yol hərəkəti haqqında" qanunun 85-ci maddəsinə əsasən nəqliyyat vasitəsinin qanunvericiliklə müəyyən edilmiş dayanma və durma qaydalarının pozulduğu halda(əgər sürücü həmin nəqliyyat vasitəsinin yanında deyilsə), həmçinin bu Məcəllənin 406.1-ci maddəsində göstərilən hallarda nəqliyyat vasitələri müvəqqəti olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağında saxlanıla bilər. Maddənin tələblərinə nəzər saldıqda avtomobil yalnız onun sahibinin olmadığı halda evakuatorla "cərimə meydançası"na aparıla biləcəyi qeyd edilir.

İnzibati Xətalar Məcəlləsinin 158-1.1-ci maddəsinə əsasən dayanma və durma qaydalarını pozan sürücü 20 manat məbləğində cərimə edilir və həmin cərimə İnzibati Xətalar Məcəlləsinin 451-ci maddəsinə əsasən inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 444-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirə salmanın müddəti bitdikdən otuz gündən gec olmayaraq inzibati xəta törətmiş şəxs tərəfindən bank, poçt, plastik kart, internet vasitəsi və ya yerində ödəyə bilər.

"Yol Hərəkəti Haqqında" Qanunun 85-ci maddəsinin 10-cu bəndinə əsasən Nəqliyyat vasitəsinin sahibi inzibati pozuntuya görə müəyyən edilmiş cəriməni verdikdən və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağına nəqliyyat vasitəsinin gətirilməsi və onun orada saxlanılması üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məbləğdə haqq ödədikdən dərhal sonra, saxlanılmış nəqliyyat vasitəsi ona qaytarılır. Nəqliyyat vasitəsi qanunsuz saxlanılmışdırsa və ya lazımi qaydada saxlanılmaması nəticəsində ona maddi zərər vurulmuşdursa, nəqliyyat vasitəsinin sahibi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər. İnzibati Xətalar Məcəlləsinin 407.1.1-ci maddəsinə əsasən nəqliyyat vasitəsi dayanma və durma qaydalarının pozulduğuna görə, inzibati cərimənin müəyyən edilmiş müddətdə ödənilməməsinə görə tətbiq edilən nəqliyyat vasitəsinin saxlanılması barədə qərara əsasən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağına gətirilibsə, nəqliyyat vasitəsinin sahibi və ya inzibati xətanı törətmiş şəxs inzibati cəriməni (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) və nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqqı həmin yerdə ödəyə bilər. Bu halda sürücüyə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nümunədə qəbz verilir və saxlanılmış nəqliyyat vasitəsi dərhal sahibinə qaytarılır. Sürücü inzibati cəriməni nəqliyyat vasitəsinin gətirildiyi yerdə ödəməkdən imtina etdikdə inzibati xəta haqqında iş üzrə icraat bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Qeyd edilən qanunvericiliyə nəzər saldıqda vətəndaşların ən çox dayanma və durma qaydalarını (qanunvericiliklə müəyyən edilən digər hallarda) pozduqda sürücünün həmin nəqliyyat vasitəsinin yanında olmadığı halda evakuatorla cərimə meydançasına apara biləcəyini, 20 AZN cərimə oluna biləcəyini görmək mümkündür. Cərimənin ödənilməsi həmin cərimə meydançasında müəyyən edilmiş qaydada qarşılığında qəbz verilmək şərti ilə və ya qərarın qüvvəyə mindiyi tarixdən 30 gün ərzində ödənilə bilər. Nəqliyyat vasitəsini cərimə meydançasından götürmək, nəqliyyat vasitəsinin həmin yerə gətirilməsi və orada saxlanılması üçün müəyyən edilmiş haqq ödənilməlidir. Həmin haqq ödənildikdən sonra nəqliyyat vasitəsi sahibinə qaytarılır.

Amma hüquqşünaslar deyir ki, dayanma və durma istisna olmaqla bütün hallarda, yəni yaranmış problemi 3 saat ərzində yerində aradan qaldırmaq mümkündürsə, nəqliyyat vasitəsi ümumiyyətlə mühafizə olunan duracağa qoyulmur. Məsələn, avtomobilin şüşələrinə plyonka çəkilibsə, eləcə də avtomobili idarə edən sürücü sürücülük vəsiqəsinin evdə unutduğunu deyərək, onun evdən gətirilməsini təmin edirsə.

İnzibati Xətalar Məcəlləsinin 407-ci və "Yol hərəkəti haqqında" qanunun 85-ci maddəsinə əsasən nəqliyyat vasitəsinin qanunvericiliklə müəyyən edilmiş dayanma və durma qaydaları pozulduğu halda, həmçinin bu məcəllənin 406.1-ci maddəsində göstərilən hallarda nəqliyyat vasitələri müvəqqəti olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağında saxlanıla bilər.

Maddənin tələblərinə nəzər saldıqda isə məlum olur ki, avtomobil yalnız onun sahibinin olmadığı halda evakuatorla cərimə meydançasına aparıla bilər.

Bundan başqa "Yol hərəkəti haqqında" qanunun müvafiq maddələrinə əsasən əgər sürücü içkilidirsə, avtomobilin sahibi bəlli deyilsə, yaxud onu idarə edən şəxsin sürücülük vəsiqəsi ümumiyyətlə yoxdursa və avtoxuliqanlıq halı aşkar edilərsə, o zaman avtomobil cərimə meydançasına aparıla bilər. Buna baxmayaraq avtomobil aparıldıqda qanuni tələblərin yerinə yetirilməsinə diqqət edilməlidir.

Bu qanunu pozan şəxslərdən isə şikayət etməyə hər kəsin haqqı var.

Daha bir hal isə evakuasiya zamanı maşına dəyən ziyandır.

Bu günlərdə yayılan bir videoda göründüyü ki, evakuator minik maşınını sürüyə-sürüyə aparır.

Evakuatordan aşan və ya yerə qoyulan zaman hansısa hissəsi sıradan çıxan maşınların sahibləri şikayət üçün hara müraciət etməlidir? Bu məsələdə məsuliyyət payı kimin üzərindədir? Avtomobilə qadağan olunmuş yerdən yol polisi tərəfindən evakuatorla aparılması nəticəsində ziyan dəyibsə, sürücü mütləq məhkəməyə müraciət etməlidir. Hüquqşünaslar deyir ki, belə hallarla üzləşən insanlar məhkəmələrə müraciət edib dəymiş ziyanın ödənilməsini tələb etməlidilər.

**Qanunvericilik isə sübut edir ki, evakuasiya (təxliyə) zamanı aşan, yaxud əzilən avtomobilə dəymiş ziyanı daşınmanı həyata keçirən şirkət, yaxud da sığorta şirkəti ödəyir. Bu prosesdə bütün məsuliyyət daşınmanı həyata keçirən qurumun üzərinə düşür.**

❑ **Sevinc TELMANQIZI**

# Metroya gizli yolla girmək istəyən Belarus vətəndaşı barədə yeni faktlar

## "Sergey İlyevskiyin ölkəsindəki fəaliyyəti, indiyə qədər gördüyü işlər çox diqqətlə yoxlanılır"

**Martın 25-də havalandırma sisteminin borusu vasitəsi ilə Bakı Metropoliteninin stansiyasına girmək istəyərkən Daxili İşlər Nazirliyinin (DİN) Əlahiddə Çevik Polis Alayının əməkdaşları tərəfindən saxlanılan Belarus vətəndaşı Sergey İlyevskiy ilə bağlı araşdırmalar hazırda da davam etdirilir. "Yeni Müsavat"ın redaksiyasına daxil olan məlumatlarda bildirilir ki, Nərimanov rayon Məhkəməsi tərəfindən onun barəsində 2 aylıq həbs qərarı çıxarıldıqdan sonra S.İlyevskiyin Belarusdakı fəaliyyəti, indiyə qədər gördüyü işlər çox diqqətlə yoxlanılır. Onunla bağlı hər bir detal müvafiq orqanlarımız tərəfindən araşdırılır.**



Sergey İlyevskiy

Ekspertlərin fikrincə, Azərbaycan hazırda çox həssas dönəmini yaşayır. Bildirilir ki, həm 2-5 aprel arasında Qarabağda ermənilərin törətdikləri təxribatlar nəticəsində baş verən müharibə, həm də Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi ölkəmizin daxilində də terror kimi hadisələr törətmək istəyənləri hərəkətə keçirə bilər.

Belarus vətəndaşının üzərindəki müxtəlif əşyalarla Bakı Metropoliteninə girməyə cəhd etməsinə gəlincə isə ekspertlər hesab edirlər ki, kəşfiyyatçılar digər ölkələrə xüsusi əməliyyatlar üçün gedərkən, adətən özlərini başqa peşənin sahibi kimi göstərirlər. Bu adamın eyni zamanda Gürcüstan, Ermənistandan sonra Azərbaycana gəlməsi şübhələri artıran məqam kimi xarakterizə edilir. Onun üzərində qrafitçi olmasını göstərən əşyaların isə arxasında başqa məqamların gizlənməsi istisna edilmir. Elə İkinci Dünya müharibəsindən bəhs edən "Uzaq sahillərdə" filmindən də bir epizoda diqqət etsək görərik ki, kinoda partizan olan Mehdi Hüseynzadə almanların arasında özünü rəssam kimi təqdim edirdi. Tamamilə mümkündür ki, bu adam da belə bir fənddən istifadə edə bilər. Ekspertlər onu da qeyd edirlər ki, xüsusi xidmət orqanının əməkdaşları adətən həm də xüsusi bacarıqlarına görə seçilirlər.

Onu da qeyd edək ki, bu hadisədən sonra Bakı Metropolitenində təhlükəsizlik tədbirləri daha da gücləndirilib. Artıq stansiya girişlərində olan polis əməkdaşları demək olar ki, hər bir sərnişinin əlindəki çantanı bir-bir yoxlayırlar. Tamamilə mümkündür ki, Belarus vətəndaşının işini araşdıranlar onunla bağlı hansısa məqamı artıq aşkarlayıblar.

**Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə** də polisin gücləndirilmiş iş rejimində çalışdığını təsdiqləyib. "Yeni Müsavat" əməkdaşının sorğusuna cavab olaraq O.Mansurzadə bildirib ki, bir müddət əvvəl belə bir qərar verilib: "Polis gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Çox ciddi nəzarət tədbirləri həyata keçirilir".

Məsələ ilə bağlı "Yeni Müsavat"a **təhlükəsizlik üzrə ekspert Sülhəddin Əkbər** bildirib ki, Belarus vətəndaşı bir metod olaraq, gəlişinin məqsədini dərhal bildirməyəcək: "Ola bilər ki, hansısa xüsusi xidmət orqanı, yaxud da hər hansı bir terrorçu təşkilat həmin şəxsdən istifadə də edə bilər. Həqiqətən də həmin şəxs jurnalist, karikaturaçı və sairə bu kimi peşə sahibi də ola bilər ki, ondan istifadə etsinlər. Bütün bunlar hamısı araşdırma nəticəsində bəlli olacaq. Heç bir kəşfiyyatçı getdiyi ölkədə öz kimliyini açıqlamır. Onlar ən müxtəlif adlarla gəlirlər. Misal üçün dini missioner, hansısa xarici şirkətin nümayəndəsi, dil kurslarının əməkdaşı və digər ağıla gələn bütün bu kimi üsullarla ölkəyə gələ bilərlər. Ən çox diplomatik immuniteti olsun deyə diplomatik korpusun nümayəndəsi kimi də gələ bilərlər. Sadəcə olaraq, onlar yer və şəraitə uyğun olaraq maksimum diqqət çəkməyən yoldan, vasitədən istifadə edirlər".

Xatırladaq ki, Belarus vətəndaşı saxlanılan zaman hadisə yerindən qapı açarı, əlcək, alın fənəri, iki kəndir, 10 ədəd boya balonu, rəng püskürən 12 balon başlığı, dayaqlı fotoaparat və başa bərkitmə mexanizmli «Sony» markalı videokamera götürüldüyü bildirilib. Habelə, S.İlyevskiyin üzərindən Tbilisi, Yerevan metrolarının stansiyalarında çəkdiyi şəkillər, bu obyektlərin, eləcə də Bakı Metropoliteninin sxemi, mobil telefon və pul aşkarlandığı qeyd edilib.

**Məlumatda həmçinin bildirilib ki, ilkin araşdırmada Belarus Respublikasının Azərbaycandakı səfirliyinin əməkdaşları da yaxından iştirak ediblər. S.İlyevskiy ifadəsində deyib ki, havalandırma sisteminin borusunda olan dəmir barmaqlıqları kəsməklə metropolitenin tunelinə girib, divarlara qrafiti üslubda rəsmlər çəkmək istəyib.**

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 81 (6402) 16 aprel 2016

# İctimai təhlükə yaradan narkomanlar məcburi xəstəxanaya yerləşdiriləcək

**Azərbaycanda inzibati həbs nəzərdə tutan inzibatı xəta törətməmiş, lakin öz davranışları ilə ictimai təhlükə yaradan narkomanlıq xəstəliyinə düçar olan şəxslər psixiatriya xəstəxanasına məcburi qaydada yerləşdiriləcəklər.**

Trend-in məlumatına görə, bu barədə məsələ Milli Məclisin bu gün keçirilən plenar iclasında müzakirə edilən "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda əksini tapıb.

Qeyd edək ki, qanunun hazırkı variantında cinayət törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində məcburi tibbi tədbirlər tətbiq edilir.



Qanuna təklif edilən yeni dəyişikliklərdə isə inzibati həbs nəzərdə tutan inzibatı xəta törətməmiş narkomanlar da barəsində məcburi tədbirlər tətbiqi edilən şəxslərin sırasına əlavə edilib. Belə ki, yeni layihəyə əsasən, cinayət və ya inzibati həbs nəzərdə tutan inzibatı xəta törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində Mülki Prosessual Məcəlləyə uyğun olaraq, məcburi tibbi tədbirlər tətbiq ediləcək.

Təklif olunan dəyişikliklər cinayət və ya inzibati həbs nəzərdə tutan inzibati xəta törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslərin Mülki Prosessual Məcəlləsinə uyğun olaraq, psixiatriya xəstəxanasına qeyri-könüllü yerləşdirilməsini nəzərdə tutur.

**Layihə Milli Məclisin plenar iclasında I oxunuşda qəbul olunub.**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır

**Bu ilin əvvəlindən Azərbaycan əhalisinin sayı 17 900 nəfər və ya 0,2% artaraq 2016-cı il mart ayının 1-i vəziyyətinə 9 milyon 723 min 500 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən Musavat.com-a verilən məlumata görə, əhalinin 1 kv. km olan sıxlığı 112 nəfər olub.

Ölkə əhalisinin ümumi sayından 53,1%-i şəhər, 46,9%-i kənd sakinlərinin, 49,8%-i kişilərin, 50,2%-i isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk iki ayı ərzində ölkədə 27 min 600 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 17,5 təşkil edib. Doğulan körpələrin 53,2%-i oğlan, 46,8%-i isə qız uşaqlarından ibarət olub.

2016-cı ilin yanvar-fevral aylarında ölkədə 9 min 900 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,3 olub.

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Telefon: (050) 264-49-99**



## Evə pəncərədən girib, qadına bıçaq çəkən şəxs tutuldu

**Kəpəz TV (Region TV) xəbər verir ki, Gəncə şəhər Kəpəz rayonu ərazisində yaşayan Sevda Tağıyevaya qarşı quldurluğa cəhd edilib. Evinə pəncərədən daxil olan şəxs onu bıçaqla hədələyərək pul və qızıl əşyalarını verməsini tələb edib. Səs-küy yarandığından istəyinə nail ola bilməyən şəxs evi tərk edib.**

Polis qadına qarşı quldurluq etməkdə təqsirli bilinən Gəncə şəhər sakini Şükür Əşrəfovu saxlamağa müvəffəq olub. Araşdırmalar zamanı onun digər bir şəxsin evindən də oğurluğa cəhd etdiyi məlum olub.

## Bakıda beynəlxalq tibb mərkəzinin rəhbərinin evini yardılar

**Bakıda beynəlxalq tibb mərkəzinin rəhbərinin evindən oğurluq olub. "Report"un xəbərinə görə, naməlum şəxslər İsrail Azərbaycan Beynəlxalq Tibb Mərkəzinin rəhbəri Aleksandr Şapiro Sulimanın Keşlə qəsəbəsində yerləşən mənzilindən 13 min manat və 10 min ABŞ dolları oğurlayıb.**

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırma aparılır.

## Hava şəraiti pisləşəcək

**Aprelin 16-sı axşam, 17-də gün ərzində ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.**

Havanın temperaturu aprelin 17-də ötən günlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

## Bu il 9 min cütlük evlənib, 2 min cütlük ayrılıb

**Azərbaycanda qeydə alınan nikah və boşanmaların sayı açıqlanıb. Dövlət Statistika Komitəsindən (DSK) "Report"a verilən məlumata görə, bu ilin ilk iki ayı ərzində qeydiyyat şöbələri tərəfindən 9,0 min nikah və 2,1 min boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7, boşanmaların sayı isə 1,3 olub.**

## Cinayətkar dəstə yaradan vəzifəli şəxs təslim oldu

**Bakıda bir neçə cinayətdə ittiham olunaraq axtarışa verilən vəzifəli şəxs təslim olub. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, axtarışda olan 1982-ci il təvəllüdlü Asəf Abdullayev könüllü olaraq Korrupsiyaya Qarşı Mübarizə üzrə Baş İdarəyə gedərək təslim olub.**

A.Abdullayev Cinayət Məcəlləsinin 178-ci (dələduzluq), 218-ci (cinayətkar dəstə yaratma), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311-ci (rüşvət alma) maddələri ilə ittiham olunur.

## Məhkəmə quldurluqda təqsirləndirilən şəxslərə 17 il həbs cəzası verib

**Bakı Ağır Cinayətlər Məhkənəsində quldurluqda təqsirləndirilən Natiq İbrahimov və Nicar İmanovun cinayıt işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökümə əsasən, N. İbrahimov 9 il, N. İmanov isə 8 il müddətə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, hər iki şəxs Cinayət Məcəlləsinin 181-ci ( quldurluq) maddəsi ilə ittiham olunur.

# Köhnə, yoxsa təzə yetişən meyvə-tərəvəzi yeyək?

## Adil Qeybulla: "Vaxtından əvvəl yetişdirilən qidaların əksəriyyəti zərərlidir"

**Yaz fəsli insanlar qidalanmaya diqqət etməlidir. Çünki bu fəsildə orqanizmdə müəyyən dəyişikliklərin baş verdiyi deyilir. Əksər insanlarda halsızlıq, yorğunluq, yuxu istəyi, kədər, stress kimi hallar müşahidə edilməyə başlayır.**

Yaz fəsli gələr-gəlməz mağaza və bazarlarda meyvə və tərəvəzləri görən insan onlardan keçə bilmir. Uzun qış aylarından sonra insanlara sanki gəl-gəl deyən meyvələri və tərəvəzləri orqanizmimiz də tələb edir. Ancaq bu meyvə və tərəvəzlərin əksəriyyəti süni yolla yetişdirildiyindən insan səhhəti üçün təhlükə yarada bilər. Ekspertlər bu mövsümdə həftə ərzində ən azı, bir dəfə mal əti, azı iki dəfə balıq, iki dəfə paxlalı bitkilər, iki dəfə yumurta və hər gün iki fincan qatıq, yarım ovuca qədər fındıq və badam yeməyi məsləhət görürlər. Yeməkləri bişirdikdən sonra çox az miqdarda zeytun yağı əlavə etmək çox faydalıdır. Yemək aralarındakı zaman ərzində isə mövsümə uyğun meyvələr qəbul olunmalıdır.

Yaz aylarında orqanizm A, B və C vitaminlərinə olan tələbatı artır. A vitaminin çatışmazlığı dəridə quruluğa və gözdə zəifliyə səbəb ola bilər. Bu problemlərdən süd, yumurta, balıq və bol miqdarda sarı-narıncı rəngli meyvələrdən istifadə etməklə uzaq olmaq mümkündür. B vitamini çatışmadıqda isə insanda əsəbilik, ürək döyüntülərinin artma halları müşahidə edilir. Bu problemlərlə üzləşmək istəmirsinizsə, ət, yumurta, kələm və kartofdan bol miqdarda istifadə edin. Orqanizmdə C vitaminin çatışmazlığı immunitetin zəifləməsi və halsızlıqla müşahidə edilir.

Sadaladığımız hallardan qorunmaq üçün kartof, təzə meyvələr, limon və kələmdən istifadə etməyi unutmayın. Havaların isinməsi ilə əlaqədar qəbul olunan mayenin miqdarı da müvafiq olaraq artırılmalıdır. Gün ərzində ən azı 1,5 litr maye qəbul olunmalıdır. Alkoqol və spirtli içkilərdən mümkün qədər uzaq durmalı, əvəzində rahatladıcı və immun sistemini gücləndirən bitki çaylarından istifadə olunmalıdır. Yaz aylarında orqanizmin A,B, və C vitaminlərinə bir çox minerallara olan tələbatı artır. Ona görə də bu vitamin və minerallarla zəngin qidalara üstünlük verilməlidir.

Hazırda elə bir aydır ki, keçən ildən yetişən və qış aylarında olan tərəvəzlərlə yeni yetişən tərəvəzlər bazarda yer alır və insanların bu tərəvəzlərdən hansının yaxşı olduğu düşündürür. Əksəriyyət yeni çıxan meyvə və tərəvəzlərin yaxşı olduğunu fikirləşir və alır. Ancaq elə tərəvəz və bitkilər var ki, müəyyən kateqoriyalarına görə köhnəsi yeni çıxandan daha xeyirlidir. Məsələn kartof kimi.



**Tibb elmləri doktoru, professor Adil Qeybulla** bazarlarda satılan köhnə, yəni keçən ildən yetişib qalan bitkiləri yeməyin təhlükəli olmadığını bildirdi: "Məsələn, kartof elə bir bitkidir ki, o uzun müddət qala bilir. Bəzi parametrlərinə görə kartofun köhnəsi təzəsindən üstün sayılır".

**A.Qeybulla insanları istixanalarda yetişdirilən meyvə-tərəvəzləri alarkən diqqətli olmağa çağırdı. Onun sözlərinə görə, istixanalarda yetişdirilən bəzi məhsullar zəhərlənməyə səbəb olur**: "Vaxtından əvvəl yetişdirilən qidaların böyük əksəriyyəti insanların səhhəti üçün zərərlidir. Hər bir meyvənin, tərəvəzin öz yetişmə dövrü var və insanlarda bu qidalardan yalnız yetişmə dövründə istifadə etməlidirlər. Hazırda istixanalarda müəyyən süni iqlim şəraitində yetişdirilən müxtəlif bitkilər var. Təbii ki, onların meyvələri təbii yetişən məhsulun keyfiyyətindən aşağıdır. Amma bir məsələ var ki, istixanalarda müxtəlif gübrələrdən, çürük maddələrdən istifadə edilə bilir. Düzdür, hazırda bizim bostanlarda da ürək açan vəziyyət yoxdur. Bitkilərə həddən artıq gübrə vermək və digər amillər bu tərəvəzlərə öz təsirini göstərir. Qarpızdan, pomidordan zəhərlənmə halları göstərir ki, bunlar yetişdirilən zaman həddən artıq gübrə və müxtəlif situmullaşdırıcı qidalar verilib. Ona görə də bu cür meyvələri alarkən onların içərisinə diqqət etmək lazımdır. Məsələn, qarpızın içərisində uzun zoğlar varsa, yaxşı olar ki, yeyilməsin. Bu, pomidora da aiddir".

❑ **Günel MANAFLI**

# Abutalıbovun adamları Bakının hər qarışından pul qazanır

## Səkilərdə maşınların park edilməsi piyadaların həyatını təhlükəyə atır

**"Bakı gözəl, müasir, inkişafda olan şəhərdir. Əlbəttə ki, inkişaf etmiş ölkələrdə heç bir şəhərdə küçələrdə əlində çubuq parkinqlə məşğul olan tənzimləyiciləri görmək mümkün deyildir. Bu, bizə yaraşmır, yaraşmaz. Özü də heç kim bilmir ki, onlar harada işləyirlər, yığdıqları pulları hara verirlər, kimə ötürürlər..."**

Bu sözləri Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş 15 aprel tarixli iclasında **prezident İlham Əliyev** demişdi.

Elə prezidentin bu çıxışından sonra Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbov təcili olaraq "əli çubuqlulara" alternativ axtarmağa başladı. İlk olaraq 2014-cü il, mayın 12-dən Bakının bir neçə nöqtəsində park-terminalların quraşdırılmasına başlanıldı. İndi isə Bakının elə bir nöqtəsi yoxdur ki, orada park-terminal olmasın. Ara küçələr, səkilər, hətta yaşıllıqlar belə ödənişli dayanacaq kimi sürücülərin xidmətinə verildi, park-terminallar quraşdırıldı.

Əslində park-terminallar quraşdırılmağa başlayarkən gözlənilən o idi ki, avtomobillərin hərəkətinə maneə yaradacaq, tıxacların yaranmasına səbəb olacaq yol kənarlarında avtomobillər saxlanmasına icazə verilməyəcək və özbaşınalıq edən sürücülər bundan sonra səkilərdə avtomobil saxlamayacaq. Lakin gözlənti bu olsa da, hazırda müşahidə etdiklərimiz tam fərqlidir.

İndi fərqlilik yalnız "əli çubuqlular"ın yerinə dayanacaqlarda standart formalı BŞİH əməkdaşlarını görməyimizdir. Yol kənarlarında, səkilərdə, ağacların arasında, ara məhəllələrdə olan bütün boş ərazilər artıq ödənişli dayanacaqlara çevrilib.








Yəni ödənişini et, maşını harada istəsən saxla. Elə bu öz başınalıqlar, yol kənarlarındakı ödənişli dayanacaqlar çox vaxt tıxacların yaranmasına səbəb olur. Paytaxtın mərkəzi küçələrində bu hallara rast gəlinməsə də ətraf küçələrdə, yol kənarlarında quraşdırılan saysız-hesabsız parkomatlar bu cür tıxacların yaranmasına səbəb olur.

Bakının dar küçələrinin bir hissəsi ödənişli dayanacaqlara ayrıldığından tıxacların yaranması qaçılmaz olur. Həmçinin bəzi küçələrdə piyadaların hərəkəti üçün nəzərdə tutulan səkilərin ödənişli dayanacaqlar kimi istifadəyə verilməsi halları da müşahidə olunur. Bu da öz növbəsində piyadaların hərəkətində ciddi problemlər yaradır. Səkilərdə maşınların park edilməsi piyadaların həyatını təhlükəyə atır. Belə olan halda piyadalar məcburi şəkildə avtomobil yolu ilə hərəkət etməli olurlar.

Belə hallar daha çox ticarət mərkəzlərinin, bazarların ətrafında müşahidə olunur. Məsələn, bu cür vəziyyət artıq uzun müddətdir ki, "Xalqlar dostluğu" ticarət mərkəzinin ətrafında hökm sürür. Səkiyə BŞİH tərəfindən vurulan elanda bildirilir ki, bu ərazi ödənişli dayanacaqdır. Sürücülər də ödəniş edərək səkidə avtomobil saxlayırlar. Piyadalar isə hərəkətdə olan maşınların arasından yollarına davam etməyə çalışırlar.

Ümumi mənzərə belədir ki, BŞİH əməkdaşları avtomobil girə bilən hər yerdən pul qazanmağa çalışır. Hətta yaşıllıq ərazilərdə, ağacların arasında, məhəllə küçələrində belə parkomatlar quraşdırılıb. Bu cür anormal hallara şəhərin müxtəlif yerlərində rast gəlmək mümkündür. Nizami rayonu ərazisində də bu cür hal müşahidə olunur. Rayonun Qara Qarayev prospektində yaşıllıqlar arasında parkomatlar quraşdırılıb. Ağaclar arasındakı boş ərazilər parkinq kimi istifadə olunur. BŞİH əməkdaşları bacardıqları qədər boş əraziləri israf etməməyə çalışırlar. Onlar Bakının hər qarışından pul qazanmağa çalışırlar.

❑ **İ.MURADOV**
❑ **Fotolar müəllifindir**

# Bakıda müştərilərdən qanunsuz "servis xidməti"nə görə pul alınır

## Eyyub Hüseynov: "Belə çeklərin üzərində VÖEN yoxdursa, qanunsuzdur"



BEM
Чек #173899 Стол # 5 Гостей 1
27.03.2016 Открыт 19:43 Печать 20:04
Кассир: Gunay
Официант: RUSLAN

| Блюдо | Кол-во | Сумма |
|---|---|---|
| Redbull 0.25 | 4.00 | 24.00 |
| Cola 0.33 | 1.00 | 2.50 |
| Всего: | | 26.50 |
| Servis xidmeti | | 2.70 |
| Итого к оплате: | | 29.20 |
| AZN | | 29.20 |

**Bakıda bəzi əyləncə mərkəzlərində və restoranlarda müştərilərdən "servis xidməti" adı altında əlavə ödənişlər tələb olunub. Bəzən qiymətlərin baha olmasından narazı olan müştərilər əlavə olaraq bir də "servis xidməti" olaraq ödəniş etmək məcburiyyətində qalırlar.**

Musavat.com-un məlumatına görə, bu cür məkanlardan biri də Bakı Əyləncə Mərkəzidir (BƏƏ). Həmin məkanın əyləncə zalında müştərilərdən "servis xidməti" adı altında əlavə ödəniş tələb olunur. "Servis xidmətin"nin məbləği müştərilərə təqdim olunan çekdə belə göstərilir.

Beləcə, adını qeyd etdiyimiz əyləncə mərkəzində müştərilərə təqdim olunan məhsulların bazar qiymətindən 3-4 dəfə baha olması az deyilmiş kimi, "servis xidməti"nə görə də ödəniş alınır. Fotosunu təqdim etdiyimiz çekdə müştərilər 4 ədəd 0,250 lt "Redbull" və 1 ədəd 0,330 lt-ik "Coca-cola" içkisini aldıqları görünür. Bu içkilərə görə 26 manat 50 qəpik ödəniş, əlavə olaraq isə 2 manat 70 qəpik "servis xidməti" tələb olunub.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov**un fikrincə, istehlakçılardan servis xidmətinə görə ödəniş tələb edilməsi qanunsuzdur. Təşkil rəhbəri deyir ki, əgər təqdim olunan çekin üzərində VÖEN yoxdursa, birmənalı şəkildə həmin kağızlar rəsmi sənəd hesab olunmur: "Belə olan halda istehlakçılardan artıq pul alınması məsələsi var. Və bu pullar vergidən yayındırılır. Həmçinin, rəsmi kassa çeklərində əlavə olaraq "servis xidməti"nin qiymətinin göstərilməsi mümkünsüzdür. Dünyanın bütün ölkələrində istehlakçılara yaxşı xidmət göstərildiyində istehlakçılar özləri əlavə ödəniş edirlər. Bu ənənə kapitalist ölkələrindən gəlmədir. Statistik rəqəmlərə görə, ən çox Kanadada istehlakçılar yaxşı xidmətə görə əlavə pul ödəyirlər. İstehlakçı sərbəstdir. İstəsə servis xidmətindən razı olub, özü əlavə ofisanta ödəniş edə bilər".

**E.Hüseynovun sözlərinə görə "servis xidməti" adının qeyd olunduğu çeklərin üzərində VÖEN yoxdursa, bu çek qanunsuz hesab olunur**: "Əgər siz qeyd etdiyiniz kimi, hər hansı bir əyləncə mərkəzində, restoranda servis xidməti olaraq ödəniş tələb edilirsə, bu istehlakçıların hüquqlarının pozulması deməkdir".

**Belə hallarla rastlaşanlar onlardan tələb edilən bu pulu ödəməkdən imtina edə bilərlər. Çünki bu məbləğlər qeyri-qanuni olaraq sahibkarlar tərəfindən müştərilərdən tələb olunur.**

❑ **İ.MURADOV**

# YENİ MÜSAVAT

## Son səhifə

N 81 (6402) 16 aprel 2016




### Kişilərin kökünə, qadınların arığına... super endirim...

Çinin Çunçine şəhərində yerləşən bir restoran artıq çəkili müştərilərinə endirim kampaniyası təşkil edib. Məlumata görə, kafedə kişilər üçün endirim proporsional olaraq onların çəkisinin çoxluğuna görə yüksəlir. Amma qadınlar üçün vəziyyət əksinədir. Belə ki, maksimal endirimdən yararlanmaq istəyən qadınların isə maksimum arıq olması tərcih edilir.

140 kiloqramdan kök kişilər ümumiyyətlə, kafedə pulsuz qidalanırlar. Eyni şey qadınlar üçün də keçərlidir. 34.5 kilodan kök olmayan qadınlar da pulsuz yemək şansından yararlana bilir.

Daha öncə Şanxayda yerləşən bir Çin restoranı da müştərilərinə analoji aksiya təşkil etmişdi. Amma həmin restoranda endirimin məbləği müştərilərin boy ölçülərindən asılı olub - kim nə qədər hündürdürsə, endirimdən bir o qədər yararlana bilir.



### Meymun zooparkdan qaçdı, 1800 nəfər işıqsız qaldı

Yaponiyanın Senday şəhərində zooparkdan qaçmış Çaça adlı meymun elektrik dirəyinin üstünə çıxıb. Dirəklərin üstündə hoppanan meymunu 10 xilasedici oradan düşürtməyə çalışıb. Qorxmuş meymunu sakitləşdirmək üçün ona sakitləşdirici ilə atəş açıblar. Bundan sonra Çaça zoobağa geri qayıdıb. Tohoku Electric Power-in yaydığı məlumata görə, meymunun bu hərəkətinə görə, şəhərin 1800 nəfər sakini elektriksiz qalıb.

# Wi-Fi hamilələrə ziyandır

"Forbes" jurnalı internet və cib telefonları ilə bağlı yeni bir araşdırma yayımlayıb. Araşdırmaya görə, xərçəngə səbəb olan 250 maddə arasında televizor, radio, mikrodalğalı soba, cib telefonu və kabelsiz internet (Wi-Fi) yer alır. Alimlər məsləhət görür ki, uşaqları mümkün qədər bu dalğalardan qorumaq lazımdır. Elektromaqnit dalğalara uzun müddət məruz qalan insanlarda xərçəng riski artır, başqa xəstəliklər yaranır. İnsanların məruz qaldığı elektromaqnit dalğaların xərçəngə keçmə dövrü isə 30 il və daha çox hesablanır. "Wi-Fi bizi yavaş öldürürmü" başlıqlı məqalə yazan alim Mark Gibbsin fikrincə, 50-100 il sonra dönüb geriyə baxanda cib telefonu və kabelsuz internetin insanlıq tarixinin ən böyük sağlıq krizinə səbəb olmasına təəccüblənə bilərik. Riskin ən yüksək olduğu dönəm isə körpənin hələ ana bətnində olduğu dönəmdir. Hamilələrin evində Wi-Fi olmamalı, cib telefonu isə onlardan uzaqda olmalıdır.




# Yeməyə ən çox pulsalılar pul xərcləyir

"Forbes" jurnalı hansı ölkələrdə daha çox yemək yeyildiyinə və qida məhsullarına pul xərcləndiyinə dair tədqiqat aparıb. Tədqiqatın nəticələrinə görə, qidaya ən az pul xərcləyənlər amerikalılardır. Bu sahədə onlar dünyəvi minimum nümayiş etdirirlər. Onlarda qidalanma xərcləri ümumi məbləğin 7,8 faizini təşkil edir.

Yeyimcilliyə görə ikinci yerdə Almaniya (10,4 faiz), üçüncü yerdə isə Niderland (11,3 faiz), dördüncü yerdə Yunanıstan (17,1 faiz) gəlir. İlk beşliyi Portuqaliya (18,1 faiz) bağlayır.

Dünyada bu göstərici üzrə altıncı yerdə 18,2 faiz nəticə ilə İspaniya, yeddinci yerdə Cənubi Afrika Respublikası (18,3 faiz), səkkizinci yerdə İndoneziya (19,6 faiz), doqquzuncu yerdə Braziliya (22,5 faiz) dayanır və ilk onluğu 41,1 faiz göstərici ilə Polşa tamamlayır. Gün ərzində ən çox kalori qəbul edən ABŞ (3.750), həmçinin İtaliya (3.650), Almaniya (3.540), Fransa (3.530) və Rusiya (3.320) sakinləridir.





### Xərçəng xəstələri gimnastika ilə məşğul olmalıdır

Xərçəng xəstələrinin gimnastika ilə məşğul olması məsləhət görülür. Həyata keçirilən araşdırmaya görə, xərçəngin daha çox yayılmasının qarşısını alır. Amma bu nəticəyə baxmayaraq, araşdırmaya qatılan bir çox xəstənin bədən formasını qorumaq üçün gimnastika ilə məşğul olmağa həvəssiz olduğu görünüb. Minnesotada yerləşən Mayo Klinikada aparılan araşdırmada xərçəng xəstələrinin gimnastika vərdişləri araşdırılıb. Araşdırmaya rəhbərlik edən Doktor Andrea Chevile deyib ki, həkim olaraq xəstələrə bu gimnasitikanın faydalarını başa salsaq da, onların bu barədə biliklərinin nə dərəcədə olmasından xəbərsizik. Dr. Chevillenin bildirdiyinə görə, bir çox xəstənin passiv həyat tərzi xərçəng simptomlarının daha yavaş ortaya çıxmasına səbəb olur və bu, diaqnozu gecikdirir.






**QOÇ** - Yeni əməkdaşlıq üçün uğurlu vaxtdır. Ailə-sevgi münasibətlərində də hər şey zövqünüzlə uyğunluq təşkil edəcək. Günün ikinci yarısında da şəxsi büdcənizin artacağı ehtimal olunur.



**BUĞA** - Şəxsi işlərinizdə böyük dönüş yaranmaqdadır. Bu səbəbdən də əzmkarlığınızı artırmağa çalışmalısınız. Qohum-qonşularla münasibətləri yaxşılaşdırmağa səy göstərin. Mülayim davranın.



**ƏKİZLƏR** - Yeni əlaqələrə başlamağa dəyər. Əgər gələcək perspektivlərinizə yetişmək istəyirsinizsə, boş dayanmayın. Onu da unutmayın ki, nəzərdə tutduğunuz planlara mane olmaq istəyənlər çoxdur.



**XƏRÇƏNG** - Qarşınızda səyahətə çıxmaq üçün ideal bir təqvim durur. Gərginliyi azaltmaq istiqamətində bu, ən yaxşı vasitələrdən ola bilər. Bütün hallarda bu gün qazanmaq üçün şansınız da var.



**ŞİR** - Yeni əlaqələrə başlamaq, işgüzar sövdələşmələri artırmaq gələcək perspektivləriniz üçün səmərəli ola bilər. Həmkarlarınızla dil tapın, gecəni isə mütləq öz evinizdə keçirin.



**QIZ** - Qərarlarınızda qətiyyətli olsanız, hansısa ciddi maneəyə rast gəlməyəcəksiniz. Bu gün kimisə aldatmağa çalışmayın. Günortadan sonra pul sövdələşmələrində iştirakınız uğurlu olacaq.



**TƏRƏZİ** - Gün ərzində qarşılaşacağınız hadisələrin aqibəti çıxardığınız qərarlardan birbaşa asılı olacaq. Odur ki, reallığa obyektiv qiymət verməyə, hər şeyi analiz etməyə çalışın.



**ƏQRƏB** - Saat 14-ə qədər hisslərinizi cilovlayıb mübahisəli situasiya yaratmasanız, sonrakı müddəti qənaətbəxş tərzdə başa vura biləcəksiniz. Çoxdan bəri gözlədiyiniz xəbərlər eşidəcəksiniz.



**OXATAN** - Vaxtınızın əsas hissəsini məhəbbət amilinə həsr edin. Çünki ulduzların düzümü son vaxtlar sevdiyinizə qarşı soyuqluq etməyinizi bəyan edir. Bu qüsuru aradan qaldırmağa çalışın.



**OĞLAQ** - Əmin olun ki, bu gün ulduzlar sizi daha çox sevindirəcək. Saat 13-dən sonra bir neçə sürprizlə rastlaşacaqsınız. Odur ki, evdə boş-boşuna oturmayın. Sevin ki, sevilə-siniz.



**SUTÖKƏN** - Yaxşı olar ki, əsas gücünüzü istirahətə həsr edəsiniz. Hər hansı sövdələşmə və ya riskli addımlar mövqeyinizi əks etdirməyəcək. Ən yaxşı variant ürəyinizə yaxın adamlara baş çəkməkdir.



**BALIQLAR** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Bir tərəfdən maddi durumunuzda baş qaldıran problemlər, digər tərəfdənsə müttəfiqlərinizin başısoyuqluğu hiddətinizi artıra bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

### Plastik əməliyyata 430 min xərclədi, indi burnunu itirə bilər



Plastik əməliyyatlar dünya insanının başını bəlaya salır. Gəlincik Kenə bənzəmək üçün plastik əməliyyatlara 430 min dollar pul xərcləyən Rodriqo Alves adlı braziliyalının sağlamlığı üçün ciddi təhlükə yaranıb. Lenta.ru saytının xəbərinə görə, hazırda R.Alvesdə nekroz (dərinin ölməsi) xəstəliyinin əlamətləri özünü göstərir. Bu isə kişinin plastik əməliyyat etdirdiyi burnunu itirməsi ilə nəticələnə bilər. 32 yaşlı britaniyalı 2004-cü ildən etibarən 42 plastik əməliyyat keçirib. Son əməliyyatını isə 2016-cı ilin fevralında keçirib ki, ondan bir müddət sonra da xəstəxanaya düşüb. Buna səbəb burnunda yaranan problem olub. Hazırda kişi çətinliklə nəfəs alır. Alvesin vəziyyətini yaxşılaşdırmaq üçün britaniyalı həkimlərin nə edəcəyi sual altındadır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750